

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 dekabr
2025-ci il,
şənbə
№ 233 (7060)
Qiymətı
60 qəpik


## Prezidenti təbrik edirlər

Bax səh. 2

## Parlament amnistiya aktını təsdiqlədi



Bax səh. 3

## Bakının sülh modeli: qarşıdurmadan sabitliyə doğru



Bax səh. 5

## Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoyub

Bax səh. 2

## Üç qitəni birləşdirən İslam səkkizliyi

Çoxvektorlu xarici siyasət kursuna malik olan müstəqil Azərbaycanın beynəlxalq təşkilatlarda təmsilçiliyi də yüksək səviyyədədir. Diqqət çəkən məqam ondan ibarətdir ki, nümunəvi multikultural mühiti ilə fərqlənən respublikamız həm Qlobal Cənuba, həm də Qlobal Qərbə aid qurumlarda eyni səviyyədə yüksək statusa malikdir və dünyada fərqli mədəniyyətlər arasında körpülər yaradan ölkə qismində çıxış edir.

Bir il bundan əvvəl - 2024-cü il dekabrın 19-da isə Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilib. Ölkəmizin təşkilatda qısa müddəti əhatə edən təmsilçiliyi kifayət qədər məhsuldar olub.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya...

Bax səh. 4

## Orta Dəhlizin inkişafında Azərbaycanın artan rolu



Bax səh. 2

## Azərbaycan üçün yeni investisiya qapısı

Bax səh. 5

## Tramp imzaladı

### Vaşinqtondan rekord hərbi büdcə - 901 milyard dollar

Bax səh. 7

## Kiçik və orta biznesin ÜDM-də payı artır

Azərbaycan iqtisadiyyatında tədricən öz yerini tutmağa çalışan və milli iqtisadi inkişafa töhfələr verən kiçik və orta biznes (KOB) sinfi qeyri-neft sektorunun aparıcı qüvvəsinə çevrilməkdədir. KOB-lar iqtisadi artımın və sosial inkişafın mühərrikləri hesab olunur. KOB-ların dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına verdiyi töhfə böyükdür. İqtisadi fəallığını və potensialını artıran KOB icması ümumi gəlir portfelini də möhkəmləndirir. 2024-cü ildə onların dövriyyəsi 48 milyard manatı ötüb ki, bu son illərdə ən böyük artım dinamikası deməkdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədovun sözlərinə görə, 2018-ci ildən bu günə qədər KOB subyektlərinin sayı təxminən 74 faiz artaraq...

Bax səh. 4

## İkili standartlar yuvası



Bax səh. 6

## NATO - Rusiya "müharibəsi" yenidən gündəmdə



Bax səh. 7

# Prezidenti təbrik edirlər

## Çin Xalq Respublikasının Sədri Si Cinpindən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır.

Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir.

Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

**Si Cinpin,**
**Çin Xalq Respublikasının Sədri**

## Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevdən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu xoş fürsətdən istifadə edərək, birgə səylərimiz nəticəsində Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın və çox yaxşı münasibətlərin gələcəkdə də fəal şəkildə inkişaf edəcəyinə və dərinləşəcəyinə əminliyimi bildirirəm.

Son bir neçə ildə hər dəfə konstruktiv və dostluq mühitində keçən, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda strateji münasibətlərin, səmərəli əlaqələrin, fəal siyasi dialoqun genişlənməsinin təsdiqləndiyi görüşlərimizi məmnuniyyətlə xatırlayıram.

Ümid edirəm ki, Veliko Tırnovo şəhərində Sizinlə birlikdə böyük səylər göstərdiyimiz Şuşa parkının açılışı ilə əlaqədar Bolqarıstana uzun müddət gözlənilən səfəriniz ölkəmizdəki mövcud siyasi böhrandan asılı olmayaraq 2026-cı ildə baş tutacaqdır.

Sizin şəxsi diqqətiniz və iştirakınız sayəsində ötən il uğurla keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) sonra 2026-cı ildə Azərbaycanda ilk dəfə olaraq Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil ediləcək zirvə toplantısında da ölkələrimiz arasında ən yüksək səviyyədə dialoqu davam etdirməyə hazıram.

Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Rumen Radev,**
**Bolqarıstan Respublikasının Prezidenti**

## Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkodan

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, bu il Siz bayramınızı xüsusi əhvali-ruhiyyə ilə qarşılayırsınız. Sizin siyasi müdrikliyiniz və möhkəm iradəniz sayəsində Azərbaycan Respublikası qarşıya qoyulmuş məqsədlərə nail olaraq beynəlxalq nüfuzunu inamla artırır.

Belarusda ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinə, həmçinin müxtəlif sahələrdə dövlətlərarası əməkdaşlığın ardıcıl inkişafına xüsusi əhəmiyyət verilir.

Çoxtərəfli platformalarda etimada əsaslanan təmasları və qarşılıqlı dəstəyi, eləcə də Belarus-Azərbaycan dialoqunun bütün səviyyələrdə dərinləşdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Hörmətlə,

**Aleksandr Lukaşenko,**
**Belarus Respublikasının Prezidenti**

## Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustindən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost Azərbaycan milli iqtisadiyyatın və sosial sahənin inkişafına, vətəndaşlarının rifahının yaxşılaşdırılmasına və beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsinə yönəlmiş genişmiqyaslı islahatlar yolu ilə inamla irəliləyir.

Rusiya-Azərbaycan münasibətlərinin mehriban qonşuluq və qarşılıqlı hörmət ruhunda möhkəmləndirilməsinə göstərdiyiniz daimi diqqəti xüsusilə qeyd etmək istərdim. Ən yüksək səviyyədə qəbul edilmiş qərarlara uyğun olaraq, iqtisadi-ticari və investisiya əməkdaşlığı durmadan inkişaf edir, perspektivli birgə layihələr həyata keçirilir, regionlararası əlaqələr və işgüzar təmaslar genişləndirilir.

Əminəm ki, əməkdaşlığın daha da gücləndirilməsi, müxtəlif sahələrdə yeni qarşılıqlı faydalı təşəbbüslərin təşviqi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının maraqlarına tam cavab verir.

Həmişə səmimi və etimad mühitində keçən söhbətlərimizi xoş duyğularla xatırlayıram. Konstruktiv ünsiyyətimizi davam etdirmək imkanına şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Səmimi hörmətlə,

**Mixail Mişustin,**
**Rusiya Federasiyası Hökumətinin Sədri**



## Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoyub

### Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin iştirakçılarına

Hörmətli konqres iştirakçıları!

Sizi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Dünyanın mötəbər tibb qurumlarını təmsil edən tanınmış alim və mütəxəssislərin iştirak etdiyi bu konqresdə tibb elminin və səhiyyənin müxtəlif aspektlərinə dair ətraflı fikir mübadiləsi aparılacaqdır. Beynəlxalq praktikadan qarşılıqlı surətdə faydalanmaqla aktual məsələlərin müzakirəsinə və həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Dövlətin səhiyyə siyasətinin hədəflərinə uyğun olaraq tibb ocaqları ən müasir standartlar səviyyəsində yenidən qurulur, araşdırmaların son tibbi texnoloji nailiyyətlərin tətbiqi ilə elm və təcrübənin vəhdətində aparılması təşviq edilir. Bu istiqamətdə üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gələn Həkimləri Təkmilləşdirmə İnstitutunun özünəməxsus xidmətləri vardır.

İnstitut yarandığı vaxtdan etibarən zəngin bir yol keçmişdir. Tarixinin parlaq səhifələri görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adı ilə bağlı olan bu qocaman elm-tədris müəssisəsində məşhur alimlər nəslinin vaxtilə formalaşdırdığı peşəkar mühit indi də lazımınca qorunur. İnstitut öz bazasında topladığı yüksək hazırlıqlı professor-müəllim heyəti ilə həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində uğurlar əldə edən, mütərəqqi təcrübənin öyrənilərək elmi-praktiki müstəvidə tətbiqinə böyük diqqət yetirən və beynəlxalq əlaqələrini davamlı genişləndirən mərkəz kimi nüfuz qazanmışdır.

Bu baxımdan beynəlxalq miqyaslı belə mühüm bir tədbirin məhz İnstitutun 90 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Əminəm ki, konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlığını daha da möhkəmləndirəcək, insanlara göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi və ümumilikdə tibb elminin inkişafı işinə töhfəsini verəcəkdir.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovdan

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun yüksəldilməsində və xalqın rifahının yaxşılaşdırılmasında əhəmiyyətli uğurlar qazanıb.

Böyük məmnunluqla qeyd etmək istərdim ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma kimi möhkəm prinsiplərə əsaslanan Türkmənistan-Azərbaycan münasibətləri son zamanlar yeni vüsət alıb.

Bu münasibətlər yüksək səviyyədə qarşılıqlı etimad və anlaşma ilə fərqlənir ki, bu da dövlətlərimizin gələcək uğurlu inkişafı üçün möhkəm təməl rolunu oynayır.

Bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, davamlı tərəqqi və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

**Sərdar Berdiməhəmmədov,**
**Türkmənistanın Prezidenti**

## Ukraynanın Prezidenti Volodimir Zelenskidən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Çox hörmətli cənab Prezident.

Zati-alinizin doğum günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin liderliyiniz sayəsində Azərbaycan müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla gücləndirərək, dövlət üçün mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Bu tərəfdaşlıq Qara dəniz-Xəzər regionunda ədalətli sülhə nail olmaq niyyətinə, eləcə də enerji, iqtisadi-ticari, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

Ukrayna Rusiya Federasiyasının silahlı təcavüzü şəraitində göstərilən həmrəylik və praktiki dəstəyə görə Sizə və Azərbaycan xalqına dərin minnətdarlığını bildirir. Xüsusilə ölkənin enerji sistemi obyektlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə göstərilən humanitar yardım, Kiyev vilayətində işğaldan azad edilmiş İrpin şəhərinin yenidən qurulmasında iştirak, cəbhəyanı regionlardan olan ukraynalı uşaqların sağlamlığının bərpası və reabilitasiyası yüksək dəyərləndirilir.

Zati-aliləri cənab Prezident, icazə verin, Sizi bir daha ürəkdən təbrik edim, Sizə möhkəm cansağlığı və dövlətçilik fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və tərəqqi arzulayım.

Dərin ehtiramla,

**Volodimir Zelenski,**
**Ukraynanın Prezidenti**

## Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevdən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Əziz qardaşım.

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizi əzəli qardaşımız olan Azərbaycan xalqının əsl vətənpərvər və fədakar övladı, müdrik və sədaqətli rəhbəri, dövrümüzün görkəmli dövlət xadimi, beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yaxşı tanıyır və yüksək qiymətləndiririk.

İdarəçilik sahəsindəki zəngin bilik və təcrübəniz, uzaqgörən, müdrik və səmərəli siyasətiniz nəticəsində doğma Vətəninizin təkcə ərazi bütövlüyü bərpa olunmayıb, həm də onun beynəlxalq arenadakı mövqeyi və nüfuzu ildən-ilə daha da möhkəmlənib ki, bütün bunlar bizi sonsuz dərəcədə sevindirir.

Bu məqamda Sizin irəli sürdüyünüz mühüm regional və qlobal təşəbbüslərin dünya ictimaiyyəti tərəfindən geniş dəstək görməsini də xüsusi vurğulamaq istərdim.

Dost və qardaş dövlətlərimiz arasında strateji tərəfdaşlıq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolundakı böyük xidmətləriniz və qətiyyətli səyləriniz sayəsində qardaşlıq əlaqələrimizin tamamilə yeni keyfiyyət mərhələsinə yüksəldiyini məmnuniyyətlə qeyd edirik.

Hörmətli İlham Heydər oğlu, qarşıya qoyduğumuz ali məqsədlərə çatmaq üçün birgə səylərimiz, ali səviyyədə aparılan fəal və konstruktiv dialoqumuz nəticəsində çoxşaxəli və uzunmüddətli əməkdaşlığımızın qardaş xalqlarımızın ümumi tərəqqisi naminə bundan sonra da səmərəli inkişaf edəcəyinə qəti şəkildə inanıram.

Əziz dostum, həyatınızın bu sevincli və unudulmaz günü münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, ailə səadəti, ölkənizin əmin-amanlığı və rifahı naminə həyata keçirdiyiniz məsuliyyətli dövlətçilik fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı inkişaf arzulayıram.

Səmimi ehtiramla,

**Şavkat Mirziyoyev,**
**Özbəkistan Respublikasının Prezidenti**

## Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkodan

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin siyasi karyeranız cəsarətlə irəliləyən, dürüstlük, qətiyyət və ölkəsinin taleyinə görə məsuliyyət nümayiş etdirən, enerjisi ilə həmfikir insanları və tərəfdarları ruhlandıran bir liderin yoludur.

Sizin çoxillik fədakar əməyiniz sayəsində Azərbaycan sosial-iqtisadi inkişafda, dövlətçiliyinin möhkəmləndirilməsində və beynəlxalq nüfuzunun yüksəldilməsində mühüm nəticələrə nail olmuşdur.

Rusiya-Azərbaycan parlament dialoqunun genişləndirilməsi məsələlərinə göstərdiyiniz davamlı diqqəti minnətdarlıqla qeyd edirəm. 2025-ci ilin mart ayında Bakıya səfərimi xüsusi səmimiyyətlə xatırlayıram. Mənə göstərdiyiniz mehriban münasibəti yüksək dəyərləndirirəm.

Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Valentina Matviyenko,**
**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri**

## Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevdən

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz ölkənizin mənafeyi naminə xalqınızın və dahi atanızın gözləntilərini layiqincə doğruldursunuz.

Uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq nüfuzu artmış, regionda sülh və qarşılıqlı etimadın yeni bir mərhələsi formalaşmışdır.

Ölkənizə davamlı rifah və yeni nailiyyətlər arzulayıram.

Aramızda yaranan hörməti xüsusilə yüksək qiymətləndirirəm. Dostluq və hörmət ruhunda keçən bütün görüşlərimizi, söhbətlərimizi həmişə xoş duyğularla yada salıram.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, nəcib təşəbbüslərinizdə müvəffəqiyyət, qardaş Azərbaycan xalqına isə firavanlıq və yeni uğurlar diləyirəm.

Ən xoş arzularla,

**Nursultan Nazarbayev,**
**Qazaxıstan Respublikasının birinci Prezidenti**

Azərbaycan Prezidentinə eləcə də Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Ramil Həsən, Rusiyanın "Komsomolskaya pravda" media qrupunun baş redaktoru və baş direktoru Olesya Nosova, ABŞ-də fəaliyyət göstərən Yuta Azərbaycan Dostluq Təşkilatının rəhbəri Əsmər Gəray, ABŞ-də fəaliyyət göstərən Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının və Azərbaycan Mərkəzinin rəhbəri İradə Axundova, Türkiyədə fəaliyyət göstərən Əskişəhər Azərbaycanlılar Dərnəyinin sədri Cavid Aydın, Ərəb Ölkələrində Yaşayan Azərbaycanlıların Koordinasiya Şurası, İsraildə fəaliyyət göstərən Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin rəhbəri Ben Sion Şmoelov və başqalarından təbrik məktubları gəlib.

# Orta Dəhlizin inkişafında Azərbaycanın artan rolu

Tranzit daşımaları baxımından son dərəcə əlverişli coğrafi yerləşməyə malik olan Azərbaycan ölkə ərazisindən keçən dəhlizlərin inkişafına, beləliklə də regional kommunikasiyaların genişlənməsinə davamlı töhfələr verir ki, bu da beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Ölkəmizin regional kommunikasiyaların inkişafında oynadığı mühüm rol bu dəfə Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Olderdays tərəfindən yüksək qiymətləndirilib. Onilliklərə söykənən möhkəm iqtisadi əlaqələr əsasında Britaniya ilə Azərbaycan arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən qürur duyduğunu bildirən ticarət elşisi respublikamızın Orta Dəhlizin formalaşmasında oynadığı rolun xüsusilə böyük imkanlar yaratdığına ayrıca vurğu edib.

Böyük Britaniya rəsmisinin belə bir dəyərləndirmə ilə çıxış etməsi təsadüfi deyil. Bu, reallığın səmimi dost etirafıdır. Hazırda ölkəmiz aktuallığı hədsiz dərəcədə artan Orta Dəhlizin əsas həlqəsini təşkil edir.

### Avropanı Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut

İndiki heç də adi olmayan bir şəraitdə Orta Dəhlizin cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb. Prezident İlham Əliyev Orta Dəhlizi çox geniş coğrafiyanı birləşdirən strateji layihə kimi səciyyələndirib.

Qeyd edək ki, sözügedən marşrut Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də tanınır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Orta Dəhliz əsas etibarilə dəmir yolundan (4256 km) və dənizdən keçən hissədən (508 km) ibarətdir və Çin-Qazaxıstan sərhədindən başlayaraq, Qazaxıstandan keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək davam edir. Gürcüstandan isə bu dəhliz iki istiqamətdə - Türkiyə vasitəsilə Avropaya, Qara dəniz vasitəsilə isə Ukrayna, Rumıniya və Bolqarıstana uzanır.

Orta Dəhlizin bir sıra önəmli üstünlüklərini sadalamaq mümkündür. İlk növbədə, onu vurğulamaq yerinə düşər ki, bütün marşrut boyunca vahid tarif, "bir pəncərə" prinsipi tətbiq olunur. Orta Dəhlizin əsas üstünlüyü ondan ibarətdir ki, bütün iştirakçı dövlətlər bu marşrutun funksionallığının artırılmasına güclü siyasi iradə nümayiş etdirirlər.

### Tarixi İpək Yolunun bərpasına həssas yanaşma

Tarixi İpək Yolu qitələr arasında ticarət və mədəni əlaqələrin formalaşmasında böyük rol oynayıb. Bu gün Orta Dəhliz həmin marşrutun müasir davamı olaraq Avropa ilə Asiyanı etibarlı və səmərəli əlaqə ilə birləşdirir.

Tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan müstəqilliyinin ilk illərindən bu marşrutun bərpasına həssas yanaşma sərgiləyir. Xatırladaq ki, Ümummilli
Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının (Aİ) TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib.

Bundan başqa, Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu" imzalanıb.

Respublikamız Orta Dəhlizin təşviqi məqsədi ilə dəhliz üzərində yerləşən ölkələrlə sıx əməkdaşlıq həyata keçirir. Qeyd edək ki, 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan və Türkiyə arasında "Orta Dəhliz"in inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi imzalanıb. 2024-cü il iyulun 3-də qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" Orta Dəhlizin inkişafı istiqamətin-



də əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

### Azərbaycanın yaratdığı vacib nəqliyyat infrastrukturu

Azərbaycanın Orta Dəhlizin inkişafında digər bir mühüm rolu ölkə ərazisində vacib nəqliyyat infrastrukturunun yaradılması ilə bağlıdır. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamız Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yönəldib.

Azərbaycanın Orta Dəhlizin inkişaf etdirilməsinə verdiyi töhfələrdən bəhs edərkən 2 layihənin önəmini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn BTQ region ölkələrinin tranzit potensialının artmasına yeni imkanlar yaradıb. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi layihəsi ötən il tamamlanıb. Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının
yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır.

Görülən tədbirlər nəticəsində son 3 ildə Orta Dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu da onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yük daşımaların tranzit müddəti 15 günə enməklə əhəmiyyətli dərəcədə azalıb.

### Yeni marşrut Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək

Cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında mühüm razılaşmalar əldə olunub. Bu razılaşmaların mühüm müddəalarından biri Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılmasını və ölkəmizin əsas hissəsi ilə blokada şəraitində olan Naxçıvan arasında maneəsiz bağlantı yaradılmasını əhatə edir. Regionda açılacaq yeni marşrut Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək və onun qlobal nəqliyyat şəbəkəsində rolunun artmasına töhfə verəcək.

Regionda kommunikasiyaların blokdan çıxarılması və Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılması ideyası Azərbaycandan gəlib. Xatırladaq ki, 44 günlük müharibənin sonuclanmasını bildirən məlum üçtərəfli bəyanata da Prezident İlham Əliyevin təkidi ilə oxşar məzmunlu bənd salınmışdı. Regionda kommunikasiyaların bərpası Azərbaycan üçün strateji önəm daşıyır. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısının yaradılması Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir.

Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək. O cümlədən Ermənistan blokadadan çıxacaq, Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin optimal bağlantısı təmin edilib. Beləliklə də İran və Rusiya da yeni marşrutdan faydalana biləcəklər.

*Mübariz FEYİZLİ*

# Parlament amnistiya aktını təsdiqlədi

## Prezident İlham Əliyevin təşəbbüsü olan bu amnistiya 20 mindən çox şəxsə şamil ediləcək

### Milli Məclis Avropa Parlamentinin qətnaməsi ilə bağlı bəyanat qəbul edib

Dekabrın 19-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova bildirib ki, dekabrın 18-də Avropa Parlamentində Azərbaycana qarşı böhtanlar və əsassız ittihamlar üzərində qurulan növbəti ədalətsiz qətnamə qəbul edilib. Təəssüflə qeyd olunmalıdır ki, Avropa Parlamenti bu addımı ilə Azərbaycanda real vəziyyəti əks etdirməyən və beynəlxalq hüquq prinsiplərinə zidd olan qeyri-obyektiv və qərəzli praktikasını davam etdirib. Bu qətnamə Avropa Parlamentinin dövlət suverenliyinə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə etinasız münasibətini əks etdirir. Sənəddə yer alan "siyasi məhbusların mövcudluğu", "siyasi təqiblər", "akademik azadlıqların və mədəni hüquqların pozulması" kimi ifadələr və digər ittihamları biz qətiyyətlə rədd edirik.

### Sahibə Qafarova: Heç bir qurumun Azərbaycanla təzyiq dili ilə danışmağa haqqı yoxdur

Onun sözlərinə görə, Azərbaycan Respublikası qanunun aliliyi, dövlət institutlarının müstəqilliyi və öz vətəndaşları qarşısında cavabdehliyi prinsiplərinə dönmədən əməl edir:"Demokratik institutların sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas elementlərinin qurulması və digər amillər dövlətimizin demokratiya yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir. Biz əminik ki, dayanıqlı inkişaf, insan hüquqlarının və azadlıqlarının müdafiəsi yalnız milli hüquq qaydası çərçivəsində və dövlətin suveren səlahiyyətlərinə ciddi riayət olunması şəraitində təmin edilə bilər. Mövcud reallıqların nəzərə alınmadığı birtərəfli rəyləri qəbul etdirmək cəhdləri heç də etimadın möhkəmlənməsinə və tərəfdaşlığın inkişafına xidmət etmir. Əksinə, bu cür yanaşma bərabər hüquqlu beynəlxalq əməkdaşlıq ideyasının özünə zərbə vurur və konstruktiv dialoq anlayışını dəyərdən salır".

Spiker qeyd edib ki, Azərbaycan insan hüquqları sahəsində beynəlxalq müqavilələrin məsuliyyətli iştirakçısıdır və üzərinə götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirir. "Bununla yanaşı, biz ölkəmizlə münasibətlərin inkişafını əsassız tələblərin yerinə yetirilməsi ilə bağlamaq cəhdlərinə səssiz qala bilmərik. Bizim dövlətimiz beynəlxalq qurumlar ilə qarşılıqlı hörmət, obyektivlik və ikili standartlara yol verilməməsi əsasında əməkdaşlıq üçün açıqdır. Lakin heç bir qurumun Azərbaycanla təzyiq dili ilə danışmağa haqqı yoxdur. Saxta ittihamlar və əsassız iddialar yolu ilə Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdləri uğursuzluğa məhkumdur. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri əsasında hərəkət edərək milli maraqlarına zidd olan bütün qərəzli addımları bundan sonra da qətiyyətlə və adekvat şəkildə cavablandıracaq",-deyə S.Qafarova vurğulayıb.



### Milli Məclisin Avropa Parlamentinin qərəzli qətnaməsi ilə əlaqədar bəyanatı

"Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini şiddətlə qınayır və bu qərəzli siyasi akta qəti etirazını bildirir. Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Torpaqlarımızın 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına daim etinasız qalmış, 1 milyon qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasını görməzdən gəlmiş Avropa Parlamenti 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsinə Azərbaycan əleyhinə 10-dan artıq rüsvayçı qətnamənin qəbulu ilə cavab vermişdir.

Bunu da xatırlatmaq yerinə düşər ki, Avropa Parlamenti COP29 kimi mötəbər tədbirin keçirilməsi ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hibrid hücumlarda əsas alətlərdən biri kimi istifadə olunmuşdur. Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir. Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir.

Avropa Parlamentinin siyasi simasının bir sıra xarakterik cizgiləri Azərbaycanla yanaşı, bu qurumun əsassız və cəfəng ittihamları ilə üzləşmiş çoxsaylı ölkələrə də yaxşı məlumdur. Bu qətnamə Avropa Parlamentinin əsl mahiyyətini ortaya qoyur və onun real niyyətlərini ifşa edir.

Korrupsiya və rüşvətxorluğun Avropa Parlamentində dərin kök saldığını göstərən çoxsaylı faktların aşkar edilməsi bu mənfi tendensiyanın həmin qurumun gündəlik fəaliyyətinin mərkəzində dayandığını sübut edir. Müxtəlif maraq dairələrinə ödənişli xidmətlər göstərən Avropa Parlamentinin qətnamələri də, bir qayda olaraq, əldə edilən maddi mənfəətin əvəzi rolunu oynayır.

Təəssüf doğuran digər məqam budur ki, müəyyən proseslərə ardıcıl surətdə səlibçilik mövqeyindən yanaşan Avropa Parlamenti islamofob və türkofob meyillərin aşkar ifadə olunduğu platformaya çevrilmişdir. İslam və Türk dünyasının ayrılmaz parçası olan Azərbaycana qarşı bu cür qərəzli hücumlar Avropada eyni tendensiyaları idarə edən müəyyən qrupların əlavə siyasi dividend qazanmaq niyyətini açıq büruzə verir. Avropa Parlamentinin bu qətnaməsinin geniş miqyaslı bir planın tərkib hissəsi olduğu da şübhəsizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədə qalib gəldiyi kimi, sülhü də qazandığı danılmaz bir reallıqdır. Məhz dövlət başçısının qətiyyətli siyasəti Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin edilməsi baxımından həlledici olmuşdur.

İndi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan-Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər.

Nəticə etibarilə, bütün qeyd edilənləri nəzərə alaraq qətiyyətlə söyləmək olar ki, Avropa Parlamenti növbəti dəfə öz məkrli niyyətlərini heç bir əsası olmayan, birtərəfli və yalan iddialar üzərində qurulmuş arqumentlərlə pərdələməyə çalışır.

Azərbaycan Respublikasının Milli Məclisi bir daha Avropa Parlamentinin məlum qətnaməsini qətiyyətlə rədd edir və onu qəbulolunmaz hesab edir. Belə qətnamələr Azərbaycana heç bir şəkildə təsir edə və ölkəmizi öz yolundan döndərə bilməz".

(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 19 dekabr tarixli iclasında qəbul edilib).

### "Qətnamə sülh prosesinə müdaxilə cəhdidir"

Millət vəkilləri də çıxış edərək məsələyə münasibət bildiriblər. Deputat Rizvan Nəbiyev deyib ki, islamofob mövqeyi ilə tanın Avropa Parlamentində keçirilən dinləmə, qəbul edilən qətnamə Azərbaycanın təşəbbüskarı olduğu sülh və dövlətlərarası normallaşma prosesinə müdaxilə cəhdidir. Onun sözlərinə görə, Avropa İttifaqı malik olduğu resurslarla yeni əməkdaşlıqda yer almaq, sülh gündəliyini dəstəkləmək əvəzinə, keçmiş münaqişə dövrünün narrativlərini modifikasiya edərək Ermənistana səhv istiqamətlərdə dəstək göstərir. "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədində yer alan bir sıra məsələlər regiona qərəzli yanaşmanın bariz nümunəsidir. Ermənistanın hərbləşdirilməsi məqsədi ilə "Avropa Sülhü Fondu" adlandırılan mexanizmin yenidən işə salınması da bunu təsdiqləyir. "Reallıqların təhrifi və ikili standartlar Avropa İttifaqının regionda sülh, normallaşma və etimad quruculuğu proseslərinə qərəzli siyasətini bir daha nümayiş etdirir. Görünən odur ki, Avropa İttifaqı daxilində müəyyən qüvvələr, o cümlədən psevdo-liberallar regionda yaranmış sülh prosesinə xələl gətirmək niyyəti ilə yenidən fəallaşıblar. Lakin bu cəhdlər də uğursuz olacaq. ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasında da qeyd edildiyi kimi, Avropa İttifaqı "dəyərlərin tənəzzülü" prosesi ilə üz üzədir",-deyə R.Nəbiyev vurğulayıb.

Millət vəkili Azay Quliyev də Avropa Parlamentinin qəbul etdiyi qətnaməni tənqid edib. Onun fikrincə, bu fakt ikili standartların növbəti nümunəsidir.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Ermənistanın Azərbaycana qarşı 30 illik hərbi təcavüzü davam etdiyi zaman Avropa Parlamenti bu işğal siyasətini pisləməyib. Eyni zamanda, işğal nəticəsində doğma torpaqlarından qovulmuş azərbaycanlıların hüquqlarını müdafiə etməyib. "Ona görə də, bu təşkilatın Azərbaycanı tənqid etməyə mənəvi haqqı çatmır",-deyə birinci vitse-spiker vurğulayıb.

### "Avropa Parlamenti korrupsiya bataqlığında boğulur"

Deputat Kamran Bayramov isə deyib ki, Avropa Parlamenti illərdir Azərbaycanı hədəf seçərək, "demokratiya", "insan hüquqları" və "qanun aliliyi" pərdəsi altında ölkəmizə təzyiq etməyə çalışır. Lakin biz yaxşı bilirik ki, bu qətnamənin arxasında duran əsl səbəb anti-Azərbaycan qüvvələrinin ölkəmizin müstəqil siyasətinə, regionda artan nüfuzuna və təşviq etdiyi sülh gündəliyinə qarşı apardığı çirkin kampaniyadır. Onun sözlərinə görə, qətnamədə yer almış iddialar tamamilə uydurma və yalan məlumatlara əsaslanır:"Burada söhbət təkcə Avropa Parlamentinin fəaliyyətindən getmir, özünü dünyaya "demokratiyanın mayakı" və "insan haqlarının qalası" kimi təqdim edən bu qurumun daxili çürüməsindən, mənəvi iflasından gedir. İllərdir ki, bizə "Avropa dəyərləri"ndən mühazirə oxuyanlar, başqa dövlətlərə şəffaflıq dərsi keçənlər, əslində pərdə arxasında nə ilə məşğuldurlar? Cavab sadə və aydındır: Siyasi alver və rüşvətxorluqla!Son dövrlərdə Avropa Parlamentində baş vermiş korrupsiya qalmaqalları göstərdi ki, bu ikili standartlar maşınının vitse-prezidentləri belə, çantalar dolusu nağd pulla ələ alınır. Bu, sadəcə bir neçə nəfərin xətası deyil. Bu, sistemin özünün rüşvətə nə qədər açıq olduğunun sübutudur.Artıq siyasi birja adını qazanmış Avropa Parlamenti korrupsiya bataqlığında boğulduğu halda, hələ də digər ölkələrə barmaq silkələməyə cürət edir. Öz daxilindəki lobbiçilik fəaliyyətini idarə edə bilməyən, maliyyə şəffaflığını təmin etmək istəməyən bir qurumun başqalarını ittiham etməsi ən böyük riyakarlıqdır".

### "Bu təşkilat Avropanın düşdüyü dərin böhranın güzgüsüdür"

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Azərbaycanın uğurları dünya səviyyəsində tanındıqca, Avropa Parlamenti bəzi dairələrin qərəzli mövqeyini ortaya qoyur. Əslində, onların məqsədi regionda sülh və əməkdaşlıq mühitini dəstəkləmək olmalıdır.Lakin təəssüf ki, Avropa Parlamenti tamam başqa bir mövqedən çıxış edir. Komitə sədrinin fikrincə, bu qurum əslində, Avropanın bu gün düşdüyü dərin böhranın bir güzgüsüdür. Qeyri-sabitlik, ikili standartlar, korrupsiya və siyasi riyakarlıq - bunların hamısı artıq Avropa Parlamentində özünü göstərir. "Bu gün biz o mərhələdəyik ki, öz sözümüzü açıq şəkildə, ən yüksək səviyyədə ifadə edə bilir və həyata keçiririk. Bu, dövlətimizin müstəqil siyasət yürütmək iradəsinin və güclənən mövqeyinin bariz nümunəsidir",-deyə S.Seyidov vurğulayıb.

Millət vəkili Vüqar Bayramov da deyib ki, Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnamədə yer alan müddəalar qərəzli olmaqla yanaşı, Cənubi Qafqazda formalaşmaqda olan sülhə təhdiddir. Bu qətnamə bir daha təsdiq edir ki, Avropa Parlamenti ikili standartlara və qərəzli açıqlamalara əsaslanan fəaliyyətini davam etdirir. Onun sözlərinə görə, Azərbaycan dövləti istənilən xarici təhdidlərə cavab vermək gücündədir:"Bu güc, sadəcə, siyasi və iqtisadi potensial ilə məhdudlaşmır, həmçinin xalq-iqtidar birliyinin yaratdığı üstünlükdür. Avropa Parlamentinin qərəzli bəyanatları isə bu qurumun öz nüfuzuna xələl gətirməklə yanaşı, yenə də bəlli dairələr tərəfindən idarə olunduğunu göstərir.Saxta dəyərlər ilə regionda sülhə töhvə vermək olmaz. Digər tərəfdən, Avropa Parlamentinin son qərəzli qətnamələri nəinki Azərbaycan ilə Ermənistan arasında formalaşmaqda olan sülhə kölgə salır, həmçinin regionun inkişafında maraqlı olmadığını bir daha təsdiq edir".

Millət vəkilləri Bəxtiyar Əliyev, Zahid Oruc, Elşən Musayev, Ceyhun Məmmədov, Azər Kərimli və digərləri də çıxış edərək Avropa Parlamentinin sözügedən qətnaməsini pisləyiblər.

Sonra parlamentin komitə sədri Şahin İsmayılov Milli Məclisin etiraz bəyanatını oxuyub. Millət vəkilləri bəyanatı qəbul ediblər.

Daha sonra iclasda "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin qərarının layihəsi müzakirəyə çıxarılıb. Spiker Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında geniş miqyaslı amnistiya qərarının layihəsini təqdim etməsi dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir. Onun fikrincə, "Konstitusiya və Suverenlik İli" kimi əlamətdar dövrdə müzakirəyə çıxarılan bu akt dövlətimizin öz institutlarının möhkəmliyinə və hüquq sisteminin yetkinliyinə inamını əks etdirir: "Əminliklə söyləmək olar ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu yeni tarixi reallıq şəraitində belə bir qərarın qəbul edilməsi ictimai sabitliyin möhkəmlənməsinə, hüquq siyasətinin humanistləşdirilməsinə və Azərbaycan dövlətinin Konstitusiya prinsipləri əsasında inkişafına dəyərli töhfə verəcək".

### Əli Hüseynli: Bu, ən böyük amnistiya sənədidir

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə amnistiya aktı barədə ətraflı məlumat verib. O bildirib ki, "Konstitusiya və suverenlik ili" çərçivəsində həyata keçirilmiş tədbirlər və qəbul edilmiş qərarlar sırasında amnistiya qərarının öz müstəsna yeri olacaq. Çünki bu, həm də Heydər Əliyev humanizm siyasətinin davamıdır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə əfv və amnistiya məsələləri də qanunvericilik və humanizm çərçivəsində bərqərar olmağa başlamışdı. "O dövrə qədər AXCP-Müsavat hakimiyyəti dövründə heç bir hüquqi-sosioloji araşdırma aparılmadan qəbul edilmiş amnistiya qərarları və əfv fərmanlarının çox ağır nəticələri olmuşdu. 1992-ci ilin 15 iyul amnistiya aktından sonra respublikada cinayətkarlıq, xüsusən onun ağır növləri dərhal yüksələrək 43 faiz artım qeydə alınmışdı. Əvvəlki illərlə müqayisədə residiv cinayətlər isə 2,5 dəfə artdı. Bu azmış kimi həmin dövrdə heç bir rəsmi əfv və amnistiya qərarı olmadan 600-dən yuxarı məhkum birbaşa həbsxanalardan guya Qarabağ döyüşlərində iştirak etmək adı altında buraxılmışdı. O məhkumların bir qismini çıxmaq şərtilə, digərləri nəinki döyüşlərdə iştirak etmədilər, əksinə cəbhə bölgəsində və ətraf ərazilərdə əhalimizə qarşı təkrar cinayətlər törətdilər. Onların axtarışı və həbsxanalara qaytarılması 1996-cı ilə qədər davam etmiş oldu",-deyə Ə.Hüseynli söyləyib.

Komitə sədri qeyd edib ki, 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə qanunçuluq və insan hüquqları bərqərar olmağa başladı. Onun sözlərinə görə, Heydər Əliyevin imzaladığı əfv fərmanları və təşəbbüsü ilə qəbul edilmiş amnistiya qərarları nəticəsində minlərlə məhkum azadlığa qovuşdu. "Bir tərəfdən mütəşəkkil cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılır, digər tərəfdən isə humanist aktlar qəbul edilirdi. Bu siyasətdə qanunçuluğun və ədalətli balansın qorunması nəticəsində hələ o illərdən Azərbaycanda kriminal durum sabit olub. Bu humanist siyasət sonra Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildi. Eyni zamanda, Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olduğu dövrdə Heydər Əliyev irsinə sadiq qalaraq amnistiya təşəbbüsləri ilə çıxış edib",-deyən Ə.Hüseynli əlavə edib ki, son 30 il ərzində 71 əfv fərmanı ilə 10 mindən çox məhkum azad edilib, 12 amnistiya qərarı isə 130 mindən artıq şəxsə şamil edilib.

Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən "Konstitusiya və suverenlik ili" münasibətilə təqdim edilən amnistiyaqərarının layihəsi isə öz əhatə dairəsinə görə ən böyük amnistiya sənədidir. Belə ki, amnistiya aktının ümumilikdə 20 min şəxsə şamil ediləcəyi gözlənilir ki, bunlardan da 5 mindən çoxu azadlıqdan məhkum etmə cəzasından azad ediləcək. Onun sözlərinə görə, amnistiya qərarının layihəsi çox mükəmməl hazırlanıb: "Qərarın preambulasında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın dövlətçiliyimizin təməlinin yaradılmasında rolu xüsusi vurğulanır. Qərar layihəsinin I hissəsində tətbiq edilən şəxslərin dairəsi müəyyənləşir ki, burada cəmiyyətimizin bütün həssas təbəqələri nəzərə alınıb. II hissədə amnistiyanın tətbiqinə məhdudiyyətlər yer alır. Bu da ilk növbədə ağır və xüsusilə ağır cinayətlərdir. 3-cü və 4-cü hissələr amnistiya aktının hüquqi qüvvəsi və tətbiqi qaydalarıdır. Belə ki, qərar qəbul olunduğu gündən qüvvəyə minəcək və icra müddəti 4 aydır. Amma tam əminliklə söyləmək olar ki, - indiyə qədər o qərarların icrasının təcrübəsinə söykənərək bunu deyirəm, - Azərbaycanın məhkəmə, hüquq mühafizə və ədliyyə orqanları tərəfindən bu qərarın daha tez icrası ənənəvi olaraq təmin ediləcək. Qərarda, eyni zamanda, amnistiya təsiri dairəsinə düşən şəxslərin sosial reabilitasiya və adaptasiya məsələləri də öz əksini tapır".

Ə.Hüseynli əminliyini ifadə edib ki, "Konstitusiya və suverenlik ili" münasibətilə verilən bu amnistiya vətəndaşlarımızın Azərbaycan dövlətinə sədaqət və qanunlara hörmət ruhunda formalaşmasına öz töhfəsini verəcək, xalqımızın haqq və ədalətə olan inamını daha da möhkəmləndirəcək.

Müzakirələrdən sonra amnistiya haqqında qərar təsdiqlənib.

Sonra deputatlar iclasın gündəliyində olan digər məsələləri müzakirə ediblər.

*Nardar BAYRAMLI*

# Üç qitəni birləşdirən İslam səkkizliyi

## Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməsindən bir il ötür...




Çoxvektorlu xarici siyasət kursuna malik olan müstəqil Azərbaycanın beynəlxalq təşkilatlarda təmsilçiliyi də yüksək səviyyədədir. Diqqət çəkən məqam ondan ibarətdir ki, nümunəvi multikultural mühiti ilə fərqlənən respublikamız həm Qlobal Cənuba, həm də Qlobal Qərbə aid qurumlarda eyni səviyyədə yüksək statusa malikdir və dünyada fərqli mədəniyyətlər arasında körpülər yaradan ölkə qismində çıxış edir.

Bir il bundan əvvəl - 2024-cü il dekabrın 19-da isə Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilib. Ölkəmizin təşkilatda qısa müddəti əhatə edən təmsilçiliyi kifayət qədər məhsuldar olub.

Elə dövlətlər var ki, onlar beynəlxalq həmrəyliyin gücləndirilməsinə, üzv olduqları təşkilatların fəaliyyətinin genişlənməsinə hər hansı bir töhfə vermək iqtidarında deyillər. Bu qəbildən olan dövlətlərin beynəlxalq təşkilatlarda təmsilçiliyi formal səciyyə daşıyır və onlar üzv olduqları beynəlxalq qurumlardan yalnız nəyi isə qoparmaq, birtərəfli qaydada faydalanmaq məqsədi güdürlər. Ölkəmizin yanaşmaları və mövqeyi isə tamam fərqlidir. Azərbaycan məsuliyyətli dövlət olaraq qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi təşəbbüslərindən çıxış edir və həmişə də proseslərdə fəallıq göstərir, öz imkanlarını ortaya qoyur və real töhfələr verir. Bütün bunların nəticəsi olaraq dünyada Azərbaycana və onun Liderinə böyük etimad yaranıb. Prezident İlham Əliyevin Azərbaycanın üzv olduğu və üzv olmadığı beynəlxalq təşkilatların yüksəksəviyyəli Zirvə görüşlərinə fəxri qonaq qismində dəvətlər alması, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi hüququnun respublikamıza verilməsi bunun əyani təsdiqidir. Artıq Azərbaycan dünyada dialoq məkanı kimi tanınır, ən həssas qlobal çağırışlar məhz paytaxtımızda müzakirə olunur. Azərbaycanı fərqləndirən həm də o cəhətdir ki, ölkəmiz beynəlxalq birliyin etmadını yüksək məsuliyyət kimi qəbul edir, ev sahibliyi hüququnu üzərinə götürdüyü tədbirlərə yüksək hazırlıqlar görür və bir qayda olaraq substantiv nəticələr qazanır.

### Yeni çağırışlar fonunda daha sıx əməkdaşlıq

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir. Üç qitəni əhatə edən, 5 trilyon 199 milyon dollar nominal,18 milyard 182 milyon dollar real ÜDM-ə malik olan,130 milyard dollar həcmində ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının (1,2 milyard ) ümumilikdə Yer üzündəki müsəlmanların 60 faizdən çoxunu təşkil edən qurum dünyada İslam səkkizliyi kimi tanınır. İslam səkkizliyinin əsas prinsipləri aşağıdakılardır:

- Münaqişələr əvəzinə sülh,
- Mübahisələr əvəzinə dialoq,
- İkili standartlar əvəzinə hüquq bərabərliyi,
- İstismar əvəzinə kooperasiyalar ,
- İkili standartlar əvəzinə hüquq,
- Zülm əvəzinə demokratiya,
- Diskriminasiya əvəzinə hüquqi bərabərlik və s.

D-8 ölkələri yeni çağırışlar fonunda əməkdaşlığı daha da dərinləşdirməyi hədəfləyiblər. Bu məqsəd qəbul olunan qərarlarda da öz əksini tapıb. Təşkilatın dövlət və hökumət başçılarının X sammitində "2020-2030 D-8 10 illik Yol Xəritəsi" adlı sənəd qəbul edilib. Bu sənəd təşkilatın güclənməsi və inkişafını hədəfləyir. Sənəd 2020-2022-ci, 2023-2027-ci və 2028-2030-cu illəri əhatə etməklə üç mərhələli inkişaf strategiyasını nəzərdə tutur. Dünyadakı yeni reallıqlara və çağırışlara uyğun islahatların aparılması İslam səkkizliyinin qarşısına bir vəzifə kimi qoyulub. Qurumun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafı dayanır.

Onillik Yol Xəritəsi artıq ikinci icra mərhələsindədir (2023-2027). Bu mərhələ D-8 daxilində ticarətin genişləndirilməsinə, sektoral əməkdaşlığın gücləndirilməsinə və üzv ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətini və davamlılığını artıran konkret layihələrin həyata keçirilməsinə yönəlib.

Hazırda Misir D-8-in sədr ölkəsidir və 2026-cı il yanvarın 1-dən iki il ərzində İndoneziya təşkilata sədrlik edəcək.

### Azərbaycana göstərilən böyük etimad

Bir il bundan əvvəl Misirin paytaxtı Qahirə şəhərində təşkilatın XI Sammiti zamanı respublikamızın yekdilliklə D-8-in üzvlüyünə qəbul edilməsi İslam səkkizliyinin tarixində ilk genişlənmə idi. Bu fakt İslam dünyasında Azərbaycanın nüfuzunun artmasının göstəricisidir. Respublikamız Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq Qlobal Cənubun səsinin daha gur eşidilməsinə nail olmağa çalışır, o cümlədən də İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Xüsusilə də ölkəmiz Qoşulmama Hərəkatına uğurlu sədrliyi dönəmində bu istiqamətdə fəal iş aparıb. Bütün bunlar onu deməyə əsas verir ki, D-8-in ilk genişlənməsinin məhz Azərbaycanla edilməsi tam məntiqlidir. Bu qərar üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmətin ifadəsidir. Əksər D-8 ölkələri ilə respublikamızın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Xatırladaq ki, ölkəmiz təşkilatda ilk dəfə Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə təmsil olunub. Azərbaycanın D-8-ə tamhüquqlu üzv qəbul edilməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı rəsmi "X" hesabındakı paylaşımında belə yazıb: "Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir. Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir".

Azərbaycanın bütün dost ölkələrlə və ayrı-ayrı beynəlxalq təşkilatlarla əlaqələri qarşılıqlı maraqlar əsasında qurulub. Bu baxımda D-8 təşkilatı ilə münasibətlər də istisna deyil. Ölkəmizin quruma tamhüquqlu üzv qəbul edilməsi hər iki tərf üçün faydalıdır. Beynəlxalq münasibətlərin indiki mərrhələsində genişlənmə hər bir təşkilat üçün vacib amilə çevrilib. Yəni reallıq onu tələb edir ki, qlobal miqyasda söz sahibi olmaqdan ötrü ilk növbədə siyasi və iqtisadi çəkiyə malik tərəfdaşların sayını artırmalısan. Azərbaycan özünün əlverişli coğrafi yerləşməsi və apardığı siyasətlə, yaratdığı reallıqlarla D-8-in Cənubi Qafqaza, Xəzər hövzəsi regionuna və daha geniş coğrafiyalara doğru genişlənməsinə körpü ola bilər. Eyni zamanda, qurumda təmsil olunan dövlətlər respublikamızın hər cəhətdən nümunəvi olan inkişaf modelindən, iqtisadi potensialından, investisiya imkanlarından bəhrələnə bilərlər. Hazırda Azərbaycan təxminən 11 min kvadratkilometri əhatə edən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirir. Prezident İlham Əliyev tərəfindən "yaşıl zona" elan edilən bu ərazilərin sərmayə cəlbediciliyi hədsiz dərəcədə yüksəkdir və D-8-də yer alan dost ölkələr bu imkandan bəhrələnə bilərlər.

Eyni zamanda, D-8-də təmsilçilik Azərbaycan üçün də faydalıdır. Belə ki, quruma tamhüquqlu üzv qəbul olunmaqla ölkəmizin geosiyasi mövqeyi daha da möhkəmlənib. Digər tərəfdən, ölkəmizin qarşısında geniş iqtisadi manevr perspektivləri, yeni bazarlara çıxış imkanları açılıb.




### Bir ili əhatə edən səmərəli fəaliyyət

Azərbaycanın D-8-də bir illik tam hüquqlu üzvlüyü kifayət qədər səmərəli olub və çoxşaxəli fəaliyyətlə yadda qalıb. Burada siyasi dialoqun intensivləşməsini xüsusi qeyd edə bilərik. Ötən dövrdə təşkilatın yüksəksəviyyəli rəsmilərinin respublikamıza uğurlu səfərləri baş tutub. Prezident İlham Əliyev 4 mart 2025-ci il tarixində qurumun ölkəmizdə səfərdə olan Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib. Həmçinin Xarici işlər naziri Ceyhun Bayramovun İsiaka Abdulqadir İmam ilə görüşü baş tutub. Qəbulda aktual müzakirələr aparılıb. Ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən Prezident İlham Əliyev tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğulayıb.

Azərbaycan müasirləşməni strateji kurs kimi müəyyənləşdirən yenilikçi ölkədir. Respublikamız həmçinin D-8 təşkilatı ilə əməkdaşlıqda da öz yanaşmasına sadiqlik nümayş etirərək bir sıra ilklərə imza atıb. 2025-ci il aprelin 29-da "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" konfransı çərçivəsində D-8 ölkələrinin QHT-lərinin ilk görüşü Azərbaycanda təşkil olunub. Müzakirələrdə D-8 ölkələrinin QHT-ləri əməkdaşlığı dərinləşdirməyə, birgə layihələr icra etməyə, BMT-nin ECOSOC (İqtisadi və Sosial Şura) təsisatı çərçivəsində səyləri birləşdirməyə çağırılıb. Bundan başqa, görüşdə D-8 regionunda rəqəmsal alətlərdən (xüsusilə süni-intellektdən) istifadənin təşviqi də diqqət mərkəzində olub. Ümumilikdə, Azərbaycanın D-8-ə qoşulması həm tarixi addım, həm də İslam həmrəyliyinə mühüm töhfə kimi dəyərləndirilib.

### D-8 Media Forumu və gənclərin dialoqu

Bakı noyabr ayında D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda Media Forumuna ev sahibliyi edib. Tədbir Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən təşkil olunub.

Forum D-8-ə üzv ölkələrin məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərini, digər yüksək vəzifəli nümayəndələri və sahə üzrə tanınmış ekspertləri bir araya gətirib.

Tədbir çərçivəsində regional və beynəlxalq müstəvidə informasiya mübadiləsinin təkmilləşdirilməsi, media sahəsində əməkdaşlığın gücləndirilməsi, dezinformasiyaya qarşı mübarizə üzrə birgə mexanizmlərin formalaşdırılması, rəqəmsal media istiqamətində birgə layihələrin təşviqi və təcrübələrin paylaşılması məsələləri müzakirə olunub. Forumda 8 ölkədən və təşkilatın Katibliyindən 71 xarici nümayəndə olmaqla ümumilikdə 150-yə yaxın qonaq iştirak edib. "Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır. Bu amillər ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərməklə yanaşı, bütövlükdə beynəlxalq sabitliyə zərbə vurur və ölkələr arasında etimadı sarsıdır. Bu səbəbdən D-8 Media Forumunun əsas vəzifələrindən biri - doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır", - deyə Prezident İlham Əliyev Forum iştirakçılarına ünvanladığı müraciətində vurğulayıb.

Dekabrın ilk ongünlüyündə Azərbaycanın ilk dəfə keçirilən D-8 ölkələrinin Gənclər Dialoquna ev sahibliyi etməsi də əlamətdar hadisədir. Dekabrın 6-da baş tutan açılış tədbirindəki çıxışında gənclər və idman naziri Fərid Qayıbov respublikamızda həyata keçirilən gənclər siyasətindən bəhs edib və ölkə rəhbərliyinin gənclərə göstərdiyi daimi dəstəyindən danışıb. Nazir dialoqun üzv dövlətlərin gəncləri arasında əlaqələri inkişaf etdirəcəyini və birgə təşəbbüslərin reallaşmasına töhfə verəcəyini qeyd edib.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi İsiaka Abdulqadir İmam dialoqun D-8 ölkələrinin gəncləri arasında korporativ əlaqələrin gücləndirilməsində əhəmiyyətli olacağını deyib. Baş katib çıxışında layiqli ev sahibliyi üçün Azərbaycana təşəkkür edib.

### Azərbaycanda D-8 Həftəsi

Cari ilin oktyabr ayında Azərbaycanda ilk dəfə olaraq D-8 Həftəsi təşkil edilib.

D-8 Həftəsi çərçivəsində baş tutan tədbirlərdə təşkilatın güclü iqtisadi bloka çevrilməsi məqsədilə qurumda islahatlar aparılması, həmçinin iqlim, şəhərsalma, və media sahəsində əməkdaşlıq kimi yeni mövzuların D-8 gündəliyinə gətirilməsi məsələləri müzakirə edilib.

Oktyabr ayında paytaxtımızda həmçinin İqlim və Şəhərsalma Fəaliyyətlərinin D-8 Onillik Yol Xəritəsi ilə Uyğunlaşdırılması məqsədilə ilk dəfə "D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqu" tədbiri baş tutub. Bildirldiyi kimi, D-8 üçün iqlim davamlılığı ilə dayanıqlı şəhərsalmanı uzlaşdırmaq təkcə zərurət deyil, həm də strateji imkandır. Bu çərçivədə, ilk dəfə keçirilən D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqu təşkilat üçün tarixi bir mərhələ kimi səciyyələndirilir. Tədbir D-8 ölkələrinin nazir, komissar və merlərini bir araya gətirərək milli iqlim və şəhər prioritetlərini ümumi iqtisadi məqsədlərlə uzlaşdırmaq, aşağıkarbonlu inkişaf üçün innovativ yanaşmaları müzakirə etmək, "yaşıl tərəfdaş"lıqları təşviq etmək və D-8-i Qlobal Cənubda iqlimə davamlı şəhərsalma sahəsində aparıcı platforma kimi möhkəmləndirmək məqsədi daşıyıb. Bu dialoq, həmçinin D-8-in innovasiya, davamlılıq və ortaq rifah prinsiplərinə əsaslanan gələcəyə yönəlik, iqlimə həssas iqtisadi blok kimi mövqeyinin güclənməsinə müsbət təsir göstərib.

*Mübariz ABDULLAYEV*

# Kiçik və orta biznesin ÜDM-də payı artır

## KOB-ların dövriyyəsi 48 milyard manatı ötüb

Azərbaycan iqtisadiyyatında tədricən öz yerini tutmağa çalışan və milli iqtisadi inkişafa töhfələr verən kiçik və orta biznes (KOB) sinfi qeyri-neft sektorunun aparıcı qüvvəsinə çevrilməkdədir. KOB-lar iqtisadi artımın və sosial inkişafın mühərrikləri hesab olunur. KOB-ların dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına verdiyi töhfə böyükdür. İqtisadi fəallığını və potensialını artıran KOB icması ümumi gəlir portfelini də möhkəmləndirir. 2024-cü ildə onların dövriyyəsi 48 milyard manatı ötüb ki, bu son illərdə ən böyük artım dinamikası deməkdir.

**Qlobal İnnovasiya İndeksində milli sahibkarların reytinqi yüksəlib**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədovun sözlərinə görə, 2018-ci ildən bu günə qədər KOB subyektlərinin sayı təxminən 74 faiz artaraq 424 minə çatıb. KOB-lar tərəfindən yaradılan əlavə dəyər 10 milyard manatdan 21 milyard manata yüksəlib. Ötən il KOB-ların dövriyyəsi 48 milyard manatı keçərək qeyri-neft dövriyyəsinin 37 faizini təşkil edib. Hazırda KOB-ların qeyri-neft ÜDM-də payı 30 faizdən çoxdur, eləcə də kiçik və orta sahibkarların mili ixracda da rolu və payı artmaqdadır.

KOB-ların beynəlxalq reytinqlərdə də mövqeyi yüksək dəyərini almaqdadır. 2025-ci ilin sentyabrında açıqlanan Qlobal İnnovasiya İndeksində Azərbaycan "Sahibkarlıq siyasəti və mədəniyyəti" göstəricisi üzrə 139 ölkə arasında 2-ci yerdə qərarlaşıb. Eyni zamanda, xarici kapitallı şirkətlər arasında aparılmış sorğuya əsasən, KOBİA sosial-iqtisadi inkişafın dəstəklənməsi baxımından dövlət qurumları arasında lider kimi qiymətləndirilib.

**"Startap" şəhadətnaməsi rəqəmsal uğuru təmin edir**

KOB-ların son illərdə vergi potensialı da ənəmiyyətli dərəcədə möhkəmləndirib və ölkənin vergi portfelində öz payını artırmağa başlayıb. Vaxtilə hökumətin bu biznes icmasına xüsusi iqtisadi güzəşt paketləri və təşviqedici stimullar verməsi, eləcə də vergi güzəşt və azadolmaları ilə əhatə etməsi artıq öz səmərəsini göstərir və KOB ailəsi vergi ödənişlərində əvvəlki illərə nisbətən daha fəal yer tutmaqdadır. 2024-cü ildə kiçik və orta biznes subyektləri tərəfindən büdcəyə ödənilmiş vergilərin ümumi həcmi 3 milyard manatı ötüb ki, bu da son 5 ildə 2 dəfəyə yaxın artım deməkdir.

KOB subyektləri rəqəmsallaşma sahəsində də ardıcıl addımlar atılır, e-KOB evi platforması istifadəyə verilib ki, bu da sahibkarlara biznesin planlaşdırılmasından inkişaf mərhələsinədək geniş elektron xidmətlər təqdim etməsini asanlaşdırır. Bir çox dövlət xidmətinin bu platformaya inteqrasiyası istiqamətində işlər davam etdirilir ki, bu da regionlarda fəaliyyət göstərən sahibkarların inkişafı əlavə imkanlar açacaq.

KOB-ların rəqəmsallaşması və innovativ ideyalarının dəstəklənməsində ən mühüm amillərdən biri "Startap" şəhadətnaməsi ilə əhatə olunmasıdır. 2025-ci ilin birinci yarısında 54 mikro və kiçik sahibkar "Startap" şəhadətnaməsi almaq üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə müraciət edib ki, Ekspertlər Şurası 27 biznes təmsilçisinin "Startap" şəhadətnaməsi ilə təmin edilməsinə razılıq verib. Şəhadətnamə almış sahibkarların 23-ü hüquqi, 4-ü fiziki şəxsdir. Onlardan 23-ü mikro, 4-ü isə kiçik sahibkarlıq subyektidir. "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin 20-si Bakı şəhərində, 7-si isə regionlarda fəaliyyət göstərir. Şəhadətnamə almış sahibkarların 4-ü qadındır.

"Startap" şəhadətnaməsi almış layihələr fintek, təhsil, ictimai iaşə, İKT, sənaye, turizm, biznesin rəqəmsallaşması, elektron ticarət sahələri üzrə innovativ həlləri özündə ehtiva edən mobil tətbiq və onlayn xidmətlərdir. Ümumilikdə isə indiyədək 215 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.



**Azad ərazilərdə KOB-ların fəallığı**

Azad ərazilərdə də kiçik və orta biznes sinfinin fəallığı artmaqdadır. Qarabağda biznes qurmaq üçün 3500-dən çox yerli sahibkar KOBİA-ya müraciət edib ki, bu da KOB-un marağının göstəricisidir. KOBİA bu ərazilərdə biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinə informasiya və məsləhət xidməti göstərir, biznes planların hazırlanmasına dəstək verir.

2023-cü ildən KOBİA və tərəfdaşların birgə icra edilən "Qarabağ KOB-ları" layihəsi çərçivəsində yüzlərlə biznes təmsilçisi müxtəlif işlərə cəlb olunub. Onların bir qismi biznes təlimlərini uğurla başa vuraraq, seçdikləri fəaliyyət sahəsi üzrə Dövlət Məşğulluq Agentliyi tərəfində lazımi avadanlıqlarla təmin ediliblər. Layihənin məqsədi şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin olunmasına dəstək göstərməkdir. Ümumilikdə, KOBİA işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq, sahibkarlıq fəaliyyətini genişləndirmək və bölgəyə investisiya yatırmaq istəyən yerli və xarici biznes subyektlərinə çoxistiqamətli dəstək göstərir. Agentliyin Zəngilan rayonunun Ağalı kəndində, Laçın, Kəlbəcər və Füzuli rayonlarında fəaliyyət göstərən KOB dostu ofisləri, Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzində yerləşən KOB evi yaradılıb. Hazırda Qarabağ bölgəsində KOB Dostu şəbəkəsinin sayı 5-ə çatıb.

*E.CƏFƏRLİ*

**Azərbaycanın Ermənistana neft məhsulları ixracı: Ermənistan üçün iqtisadi dirçəliş şansı, region üçün isə yeni mərhələ**

# Bakının sülh modeli: qarşıdurmadan sabitliyə doğru

## Enerji əməkdaşlığı fonunda Cənubi Qafqazda yeni reallıqlar



Azərbaycan 2020-ci ildən etibarən Cənubi Qafqazda tamamilə yeni siyasi, iqtisadi və təhlükəsizlik reallıqları formalaşdırır. Bu reallıqların əsas sütunlarını sülh, sabitlik və regional əməkdaşlıq təşkil edir. Post-müharibə dövründə Bakı tərəfindən yürüdülən ardıcıl və prinsipial siyasət Azərbaycanın milli maraqları ilə yanaşı, bütövlükdə regionun uzunmüddətli inkişaf perspektivlərinə xidmət edir. Azərbaycan qalib tərəf olmasına baxmayaraq, revanşizm və təzyiq dili əvəzinə beynəlxalq hüquqa, qarşılıqlı etimada və rasional əməkdaşlığa əsaslanan yanaşma sərgiləyir. Məhz bu siyasət Cənubi Qafqazın gələcək inkişaf strategiyasının konturlarını müəyyənləşdirir.

### Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir

Qeyd edək ki, dekabrın 18-də sülh gündəliyinə uyğun olaraq Azərbaycandan Ermənistana neft məhsullarının ixracına başlanılıb. Noyabrın 28-də Qəbələ şəhərində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın görüşündə əldə edilmiş razılaşmaya əsasən, SOCAR tərəfindən istehsal edilmiş Aİ-95 markalı 22 vaqon benzin yola salınıb. Azərbaycan neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılır. İlkin mərhələdə 22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacaq Azərbaycan Dəmir Yollarının (ADY) yük qatarı ilə Bakı Yük Stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Yük Gürcüstan vasitəsilə Ermənistana çatdırılıb.

Xatırladaq ki, dekabrın 8-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin yaydığı açıqlamada bildirilmişdi ki, dekabrın 5-də Tbilisi tərəfdaşlarından Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Ermənistana birdəfəlik yanacaq tranzitinin reallaşdırılması üçün müraciət alıb: "Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin qərarı ilə Gürcüstan Dəmir Yollarına göstəriş verilib ki, dərhal birdəfəlik əsasda yüklərin dəmiryolu ilə tamamilə pulsuz daşınması həyata keçirilsin".

### Öncə taxıl keçidinə icazə, indi isə benzin ixracı...

Azərbaycanın əsas məqsədlərindən biri regionu qlobal iqtisadi-ticari marşrutların mühüm həlqəsinə çevirmək, eyni zamanda qonşu dövlətlər arasında münasibətləri normal qonşuluq və qarşılıqlı maraqlar müstəvisinə çıxarmaqdır. Bu kontekstdə post-müharibə mərhələsində sülh prosesinin təşəbbüskarı kimi çıxış edən Bakının atdığı addımlar xüsusi diqqət çəkir. Ermənistanla münasibətlərin mərhələli şəkildə normallaşdırılması istiqamətində irəli sürülən təşəbbüslər Azərbaycanın konstruktiv və məsuliyyətli aktor olduğunu bir daha təsdiqləyir. Artıq Cənubi Qafqaz yeni inkişaf dövrünə qədəm qoyur və Ermənistanın da bu prosesə qoşulması regionun ümumi rifahı baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Ermənistan üzərindən tətbiq etdiyi iqtisadi məhdudiyyətləri mərhələli şəkildə aradan qaldırması, bu ilin oktyabrında taxıl ixracının Azərbaycan ərazisi vasitəsilə həyata keçirilməsi mühüm siyasi və iqtisadi mesaj idi. İndi isə Bakının Ermənistana neft məhsullarının ixracına başlaması regional situasiyanın daha fərqli mərhələyə keçdiyini göstərir. Bu addım təkcə iqtisadi mahiyyət daşımır, eyni zamanda Azərbaycanın sülh prosesinə sadiqliyinin, sabitlik və qarşılıqlı asılılıq üzərində qurulan yeni regional düzənin tərəfdarı olduğunun bariz nümunəsidir.

### Paşinyandan təşəkkür...

Neft məhsullarının nəqli Ermənistanın enerji təminatında kənar risklərin azalmasına, eyni zamanda regiondaxili asılılıq mexanizmlərinin formalaşmasına xidmət edir. Bu asılılıq qarşıdurmanı deyil, əməkdaşlığı stimullaşdırır. Çünki iqtisadi əlaqələr nə qədər dərin və sistemli olarsa, münaqişə riskləri bir o qədər azalır. Azərbaycan bu reallığı nəzərə alaraq post-müharibə mərhələsində sülhü iqtisadi məzmunla zənginləşdirir və prosesin geri dönməzliyini təmin etməyə çalışır.

Digər tərəfdən, enerji əməkdaşlığı Ermənistan cəmiyyətinə də mühüm mesaj verir. Bu mesaj ondan ibarətdir ki, sülh ritorikası real dividendlər yaradır, qarşıdurma isə sosial-iqtisadi itkilərlə nəticələnir. Azərbaycan tərəfindən atılan bu addım sülhün yalnız regional deyil, eyni zamanda, daxili ictimai dəstək qazanmasına şərait yaradır. Bu isə sülhün uzunmüddətli və davamlı olmasının əsas şərtlərindən biridir.

Azərbaycanın atdığı bu addım Bakının regionda yeni nizamı zor gücü ilə deyil, əməkdaşlıq, qarşılıqlı fayda və iqtisadi inteqrasiya üzərində qurduğunu təsdiqləyir. Məhz bu yanaşma sülhü müvəqqəti razılaşmadan real və davamlı inkişaf modelinə çevirir.

Yeri gəlmişkən, Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünün başlanmasını alqışlayıb. Bu barədə o, İrəvana Azərbaycan neft məhsullarının tədarükü ilə bağlı şərhində vurğulayıb. "Azərbaycan neft məhsullarını daşıyan qatar yola düşüb və Ermənistana gedir. Mən bu inkişafı alqışlayıram. Ticarət özəl şirkətlər arasında aparılsa da, bunun üçün siyasi şəraiti yaradan Ermənistanla Azərbaycan arasında bərqərar olan sülh olub", - deyə baş nazir deyib.

### Azərbaycan sülhü həm də iqtisadi inkişafın əsas şərti kimi təqdim edir

Danılmaz faktdır ki, Azərbaycanla Ermənistan arasında sülh prosesinin intensivləşməsində, əlaqələrin mövcud ilkin işartılarının görünməsində Vaşinqton görüşünün olduqca əhəmiyyətli rolu var. ABŞ-ın paytaxtında iki ölkə arasında sülh sazişi layihəsinin paraflanması region üçün tarixi hadisə olmaqla yanaşı, Azərbaycanın beynəlxalq diplomatiyada oynadığı rolu da bir daha göstərdi. Vaşinqton danışıqları zamanı Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipiallıq və dövlət maraqlarına sadiqlik Cənubi Qafqazda sülh prosesinin uğurla davam etdirilməsini təmin etdi. Məhz bu qətiyyət nəticəsində Ermənistan ilk dəfə real sülh sənədinə yaxınlaşdı və praktiki addımlar atmağa məcbur qaldı. Azərbaycan isə məqsədini açıq şəkildə ortay aqoydu - Bakının məqsədi revanşizm deyil, qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq əsasında sabitliyin qurulmasıdır. Göründüyü kimi, Azərbaycan postmüharibə dövründə sülhü təkcə siyasi sənəd kimi deyil, həm də iqtisadi inkişafın əsas şərti kimi təqdim edir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bölgədə dayanıqlı sabitlik yalnız qarşılıqlı iqtisadi maraqların təmin edilməsi ilə mümkündür. Bu baxımdan, Ermənistanın regional layihələrdə iştirakına şərait yaradılması Bakı tərəfindən atılmış strateji addımdır. Ermənistana yük tranzitinin açılması, neft məhsullarının nəql edilməsi həm sülh prosesi üçün etimad yaradan amildir, həm də regionun iqtisadi coğrafiyasını dəyişdirəcək hadisədir.

### Qarşılıqlı etimad yaradan real iqtisadi əlaqələr

Beləliklə, bu ixrac əməliyyatı rəsmi sülh sazişi imzalanmadan belə, Bakı ilə İrəvan arasında praktiki və praqmatik əməkdaşlıq elementlərinin formalaşmağa başladığını göstərir. Təbii ki, bu əməkdaşlıq zəmini sülh prosesinin inkişafıfna da təsir göstərməlidir - prosesin daha da inkişaf etdirilməsi siyasi proseslərin istiqamətlərindən və tərəflər arasında etimad mühitinin dərinləşməsindən asılı olacaq.

Azərbaycanın Ermənistana neft məhsullarının nəqli qərarı sülh prosesinin formalaşması və dayanıqlı xarakter alması baxımından strateji əhəmiyyət daşıyır. Çünki sülh yalnız siyasi bəyanatlar və diplomatik danışıqlarla deyil, tərəflər arasında qarşılıqlı etimad yaradan real iqtisadi əlaqələr vasitəsilə möhkəmlənir. Enerji kimi həyati və strateji sahədə əməkdaşlıq isə bu etimadın ən təsirli təminatçılarından biridir. Bakı bu addımla göstərir ki, sülh təşəbbüsü taktiki manevr deyil, uzunmüddətli regional sabitliyə hesablanmış düşünülmüş siyasətin tərkib hissəsidir.



### Bakı regionun lideri olduğunu bir daha təsdiqləyir...

Neft məhsullarının nəqli Cənubi Qafqazda uzun illər hökm sürmüş qarşıdurma mühitinin mərhələli şəkildə inteqrasiya mühiti ilə əvəz olunduğunu göstərir. Ermənistanın enerji təhlükəsizliyi baxımından alternativ mənbələrə çıxış əldə etməsi regiondaxili sabitliyə xidmət edəcək amil kimi ön plana çıxır. Bu proses eyni zamanda Azərbaycanın enerji sektorunda regional lider rolunu daha da gücləndirir və Bakını etibarlı tərəfdaş imicinə yeni ştrixlər qazandırır. Bu addım paralel olaraq iqtisadi rasionalizm üzərində qurulub. Tranzit imkanlarının genişlənməsi, logistik xətlərin aktivləşməsi və regional ticarət dövriyyəsinin artması Azərbaycanın iqtisadi maraqlarına da cavab verir. Cənubi Qafqazın qlobal ticarət marşrutlarına inteqrasiyası baxımından enerji və yük daşımaları mühüm rol oynayır və Bakı bu prosesin əsas lokomotivi kimi çıxış edir.

### Ermənistan üçün "sülh testi"...

Azərbaycanın atdığı bu addımlar eyni zamanda Ermənistan üçün siyasi yetkinlik və sülhə sadiqlik testi xarakteri daşıyır. Enerji və ticarət əməkdaşlığı yalnız qarşılıqlı etimad və konstruktiv mövqe fonunda davamlı ola bilər. Bakı açıq şəkildə göstərir ki, regional inkişafdan faydalanmaq istəyən hər bir tərəf revanşist ritorikadan imtina etməli və real əməkdaşlıq müstəvisinə keçməlidir. Bu, həm də Cənubi Qafqazda formalaşan yeni regional nizamın mühüm elementlərindən biri kimi çıxış edir. Bu nizam qarşıdurma üzərində deyil, iqtisadi qarşılıqlı əlaqələr, kommunikasiya xətlərinin açılması üzərində qurulur. Azərbaycan bu modelin əsas təşəbbüskarı və təminatçısı kimi çıxış edərək regionda sülhün alternativsiz olduğunu praktik addımlarla nümayiş etdirir.

***Pərviz SADAYOĞLU***

# Azərbaycan üçün yeni investisiya qapısı

## Avrasiya İnkişaf Bankı ölkəmizə sərmayə qoymaq niyyətindədir

Avrasiya İnkişaf Bankı (AAİB) Azərbaycanda müxtəlif sahələr üzrə layihələrin maliyyələşdirməsinə hazır olduğunu bəyan edib. Bankın Analitik İşlər üzrə İdarəsinin rəhbəri Aleksey Kuznetsov bildirib ki, Azərbaycanın bu maliyyə təsisatına üzv olacağı istisna edilmir, hazırda bu istiqamətdə son mərhələ üzrə danışıqlar aparılır. Üzvlük təmin olunduqdan sonra AAİB Azərbaycan üçün uyğun model alətləri hazırlayacaq və əməkdaşlıq üçün böyük imkanlar yaranacaq. Eyni zamanda, Avrasiya Bankı Azərbaycanın banka üzvlüyündən sonra ölkə üzrə makroiqtisadi proqnozların dərcinə başlamağı planlaşdırır.

Qeyd edək ki, Avrasiya İnkişaf Bankı Avrasiya ölkələrində iqtisadiyyatların, ticarət və digər iqtisadi əlaqələrin inkişafına və inteqrasiyaya sərmayə qoyan beynəlxalq inkişaf maliyyə institutu kimi tanınır. Bankın əsas missiyası üzv dövlətlərdə bazar iqtisadiyyatlarını və iqtisadi artımı təşviq etmək və investisiyalar vasitəsilə onlar arasında ticarət və digər iqtisadi əlaqələrin genişləndirilməsinə kömək etməkdir. 2006-cı ildə yaradılmış təsisatın Baş ofisi Qazaxıstanın Almatı şəhərində yerləşir. 7 milyard dollardan çox nizamnamə kapitalına malik olan Avrasiya İnkişaf Bankı regionda iri maliyyə institutlarından biri kimi nəhəng layihələrin, regional proqramların maliyyələşdirilməsində aktiv investor kimi çıxış edir.

### Yeddi səhmdar dövlətin maliyyə təminatı

Bankın səhmdarları Özbəkistan qoşulduqdan sonra 7-yə çatıb. Misir, İsrail, Hindistan, İndoneziya, İran, Yaponiya, Monqolustan, Sinqapur, Tailand, Koreya Respublikası və Vyetnam bu təşkilata üzv olmaq niyyətindədir. Bankın Sankt-Peterburqda filialı və Astana, Bişkek, Düşənbə, Minsk və Moskvada nümayəndəlikləri var.

N.Podquzovun fikrincə, son 4 ildə bank öz aktivlərini əhəmiyyətli dərəcədə böyütməyə nail olub, həmçinin maliyyələşmə sxemini genişləndirib. 2022-ci il yanvarın 1-dən 2025-ci ilin üçüncü rübünün sonunadək Avrasiya regionunda beynəlxalq maliyyə təşkilatları ilə birlikdə təsdiqlənmiş qeyri-suveren maliyyələşdirmənin ümumi həcmi 21,61 milyard dollar təşkil edib ki, ümumi maliyyələşdirmənin 41 faizi AAİB-in payına düşür. Həmin dövr ərzində Bank region ölkələrinə 8,81 milyard dolları həcmində maliyyələşdirməni təmin edib. AAİB-in tərəfdaşları olan Avropa Yenidənqurma və İnkişaf Bankı isə 4,99 milyard dollar, Beynəlxalq Maliyyə Korporasiyası 2,52 milyard dollar, Asiya İnkişaf Bankı 1,55 milyard dollar, Asiya İnfrastruktur İnvestisiya Bankı 1,49 milyard dollar, Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi (MIGA) isə 0,79 milyard dollar dəyərində kreditləşməni təmin edib. Bundan başqa, Avrasiya Bankı digər tərəfdaşlıq etdiyi maliyyə təchizatçıları olan Avropa İnvestisiya Bankı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası, OPEC Fondu, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Beynəlxalq İqtisadi Əməkdaşlıq Bankı və Fransa İnkişaf Agentliyi ilə birlikdə 1 milyard dollara yaxın maliyyələşmədə fəal rol oynayıb. Ümumilikdə, həmin sərmayələrin əhəmiyyətli bir hissəsi MDB və Asiya ölkələrinə yönəldilib.

### AAİB-in hədəfi sərmayələri 12 milyard dollara çatdırmaqdır

AAİB qarşıdakı illərə dair yenilənmiş strategiyasında unikal inteqrasiya rolunu gücləndirmək və tərəfdaşları ilə yeni inkişaf gündəliyinə uyğun sərmayə qoyuluşlarında aktivliyini artırmaq niyyətindədir. Avrasiya regionu ölkələrinin inkişafına töhfəsini gücləndirmək üçün 8 istiqamət təklif edən bank regiondakı birbaşa investisiyalarının həcmini 12 milyard dollara çatdırılmağı hədəf kimi müəyyənləşdirib. Həmin prioritetlər üzrə AAİB regionda nəqliyyat infrastrukturu və logistika, ərzaq təhlükəsizliyi, su və enerji sahələrində inteqrasiya meqalayihələrinin həyata keçirilməsini, rəqəmsal transformasiyanın təşviqini, yaşıl və sosial layihələri üçün maliyyənin artırılmasını nəzərdə tutur.

Eurasian Development Bank

Avrasiya İnkişaf Bankının İdarə Heyətinin sədri Nikolay Podquzov Azərbaycan arasında əməkdaşlıq üçün böyük imkanların olduğunu diqqətə çatdıraraq respublikamızın bu təşkilatda səhmdara çevrilmək potensialını yüksək dəyərləndirib. N. Podquzov bildirib ki, bank öz sıralarına yeni iştirakçıların cəlb edilməsi yolu ilə səhmdarların sırasının genişlənməsinə çalışır. Onların sırasında Azərbaycan xüsusi etimad göstərilir. Banka yeni iştirakçıların cəlb edilməsi AAİB-in fəaliyyətini gücləndirmək strategiysına xidmət etdiyindən hazırda Türkmənistan və Azərbaycanla sıx təmaslar qurulmaqdadır. Qeyd olunub ki, AAİB 2008-ci ildən 2025-ci ilin üçüncü rübünün sonunadək Azərbaycanda beynəlxalq maliyyə institutları ilə birlikdə 2 milyard 671 milyon dollar dəyərində sərmayə tranşlarında təmsil olunub.

Azərbaycanın Avrasiya Bankının səhmdarları sırasında yer alması ölkəmizin regional proqramlarda yerini daha da artırmaqla birgə sərmayələrin cəlb edilməsinə töhfə verə bilər. N.Podquzovun vurğuladığı kimi iqtisadi artım, məşğulluq, insan kapitalının inkişafı, innovativ sənaye, müasir kənd təsərrüfatı sistemi investisiyalar üçün əsas istiqamətlər sırasında nəzərdə tutulub. Eyni zamanda, Azərbaycanla əməkdaşlığın genişlənməsi bankın ölkəmizin rəqəmsal iqtisadiyyat, nəqliyyat, tranzit, energetika, özəl sektor və digər sahələrdə həyata keçirilən layihələrin maliyyələşdirilməsində iştirakını təmin edə bilər.

***E.CƏFƏRLİ***

# İkili standartlar yuvası

## Ermənistanla Aİ-nin "gündəliyi: Cənubi Qafqazda sülhə qarşı "səssiz müharibə"

Müasir beynəlxalq münasibətlər sistemində formalaşan yeni dünya nizamının aparıcı predmetləri kimi sülh, qarşılıqlı etimad və əməkdaşlıq prinsipləri çıxış edir. Qlobal miqyasda davam edən münaqişələr, geosiyasi ziddiyyətlər və təhlükəsizlik riskləri fonunda regional sabitliyin qorunması isə xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Cənubi Qafqazda yaranmış yeni reallıqlar təkcə regional deyil, həm də beynəlxalq təhlükəsizlik arxitekturasının mühüm komponentinə çevrilib.

2020-ci ildə Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq öz ərazi bütövlüyünü və suverenliyini təmin etdi və bununla da bölgədə onilliklər boyu davam edən işğal, separatizm və qeyri-müəyyənlik mərhələsinə son qoyuldu. Postmünaqişə dövründə Bakı konstruktiv mövqe nümayiş etdirərək sülh gündəliyini irəli sürdü, normallaşma prosesini təşviq etdi və Ermənistanla münasibətlərin tənzimlənməsi üçün real siyasi iradə ortaya qoydu. ABŞ başda olmaqla bir sıra beynəlxalq aktorlar bu prosesi açıq şəkildə dəstəklədi.

Lakin Avropanın bəzi strukturlarının, xüsusilə Aİ və onun tərkibindəki Avropa Parlamentinin yanaşması bu ümumi mənzərədən kəskin şəkildə fərqlənir. Aİ-nin Cənubi Qafqaz siyasətində obyektivlik və balans əvəzinə selektiv yanaşma, Ermənistanı himayə edən mövqe və Azərbaycana qarşı sistemli qərəz müşahidə olunur. Avropa Parlamenti və Aİ strukturları regionda sülhün təşviqi əvəzinə, tez-tez siyasi təzyiq və ikili standartlar vasitəsilə prosesə mane olan addımlar atır. Bu yanaşma isə sülhə deyil, gərginliyin qorunmasına xidmət edir və Aİ-nin iddia etdiyi "normativ güc" imicini ciddi sual altına qoyur.

### Sülh "gündəliyi", yoxsa sülhə alternativ plan?

Son dövrlərdə Avropa İttifaqı ilə Ermənistan arasında münasibətlərin inkişafı formal olaraq ikitərəfli format şəklində təqdim edilsə də, bu əlaqələrin regional proseslərə birbaşa təsiri danılmazdır. Burada əsas problem ondan ibarətdir ki, Aİ Ermənistanın keçmişdə həyata keçirdiyi destruktiv və işğalçı siyasətə qarşı uzun illər susqun mövqe sərgiləyib. İşğal dövründə beynəlxalq hüququn kobud şəkildə pozulması, etnik təmizləmə, mədəni irsin məhv edilməsi faktları Aİ üçün faktiki olaraq görməzlikdən gəlinən mövzular olub.

Yeni mərhələdə isə Azərbaycan tərəfindən irəli sürülən real sülh mexanizmləri beynəlxalq gündəliyin əsas mövzularından birinə çevrilib. Vaşinqtonda əldə olunmuş razılaşmalar, regional kommunikasiyaların açılması və qarşılıqlı öhdəliklər sülhün yaxın perspektivdə mümkün olduğunu göstərir. Lakin Aİ-nin Ermənistanla imzaladığı strateji sənədlərdə bu razılaşmaların mahiyyətinə uyğun olmayan yanaşma ortaya qoyular. Xüsusilə regional konsensusdan kənar təşəbbüslərin prioritet kimi təqdim edilməsi, beynəlxalq səviyyədə razılaşdırılmış marşrut və mexanizmlərə isə diqqət yetirilməməsi Aİ-nin sülhə münasibətində səmimiyyətin sual altına alınmasına səbəb olur. Bu, sülh prosesinin təşviqi deyil, onun alternativ formatlar vasitəsilə yönləndirilməsi cəhdidir.

Elə dekabrın 2-də Avropa İttifaqı ilə Ermənistan arasında imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" də bu narahatlığın təzahürü saymaq olar. Azərbaycan Xarici İşlər Nazirliyi sənədi Azərbaycan-Ermənistan sülh gündəliyinə zidd addım adlandırıb. Bu da təsadüfi deyil. Çünki sənəd postmünaqişə dövründə reallıqları təhrif etməklə yanaşı, bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyini hədəfə alıb.

Aİ ilə Ermənistan arasında növbəti 7 il müddətində strateji prioritetləri müəyyənləşdirən ikitərəfli sənəddə Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəa əks olunsa da, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilmir. Bu hal Ermənistanın Vaşinqtonda imzaladığı TRIPP sazişi çərçivəsində öhdəlikləri icra etmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaradır.

### Bitməyən müşahidənin missiyası: Aİ-nin regional aləti

Cənubi Qafqazda sülh və sabitlik Azərbaycanın iradəsi əsasında formalaşdı - bölgənin gələcək inkişafının da suverenlik ştrixləri əsasında davam etməsi qəti şəkildə ortaya qoyulur. Məhz bu amil sülh sazişi layihəsində də öz əksini tapır - sənəddə yer alan üçüncü tərəf qüvvələrinin sərhəd bölgələrində yerləşdirilməməsi ilə bağlı müddəa regional təhlükəsizlik üçün əsas şərtlərdən biri sayılır. Bu kontekstdə Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının fəaliyyəti ciddi ziddiyyət yaradır. Rəsmi olaraq "etimad quruculuğu" adı altında təqdim edilən bu missiya faktiki olaraq Azərbaycana qarşı siyasi təzyiq mexanizminə çevrilib. Missiyanın mövcudluğu ikitərəfli dialoqu zəiflədir, sülh prosesini üçüncü tərəfin nəzarətinə keçirməyə xidmət edir və regionda yeni asılılıq mexanizmləri yaradır. Aİ-nin bu missiyanı genişləndirmək və uzunmüddətli etmək istəyi onun real niyyətlərini açıq şəkildə ortaya qoyur. Sülhün möhkəmlənməsi üçün bu cür missiyalara deyil, tərəflərin birbaşa dialoquna ehtiyac var.

### Avropa "Tramp marşrutu"ndan niyə ehtiyat edir?

Regional kommunikasiya layihələri isə sülhün iqtisadi əsasını formalaşdıran əsas dayaq elementlərdən biri kimi xarakterizə olunur. Bu baxımdan Azərbaycanın təşəbbüs ilə ortaya çıxan, sonradan isə ABŞ-ın timsalında qlobal dəstək qazanan Zəngəzur dəhlizi (TRİPP) layihəsi Cənubi Qafqazın inteqrasiyası üçün mühüm imkanlar yaradır. Aİ rəsmilərinin rəsmi bəyanatlarında bu cür layihələrə dəstək ifadə olunsa da, adıçəkilən "gündəlikdə" TRİPP haqqında heç bir fikir bildirilmir. Bu da səbəbsiz deyil - Aİ daxilindəki bəzi siyasi qruplar və ideoloji dairələr (daha dəqiq ifadə etsək, sorosçu qüvvələr, "voukistlər", liberallar) regionda ABŞ-Azərbaycan-Ermənistan xətti üzrə formalaşan sülh modelini öz təsir imkanları üçün təhlükə kimi qiymətləndirir. Bu qorxu Aİ-nin qeyri-müəyyən və ziddiyyətli mövqeyində açıq şəkildə hiss olunur. İkili standartların kökündə məhz bu geosiyasi narahatlıq dayanır - onlar bölgədə yaranan sülh prosesinə xələl gətirmək istəyirlər.



### Fərqli standartlar: Aİ-nin selektiv "ədaləti"

İmzalanan "gündəlik" bir daha onu göstərir ki, Aİ-nin konkret məsələlərə münasibətdə yanaşmaları regiondan-regiona dəyişir. Ukrayna, Gürcüstan və Moldovanın ərazi bütövlüyü prinsipial şəkildə müdafiə edildiyi halda, eyni prinsip Azərbaycana münasibətdə uzun müddət arxa plana keçib. Ermənistanın törətdiyi dağıntılar, insanlıq əleyhinə cinayətlər və vandalizm faktları isə ciddi siyasi qiymət almayıb. Bu selektiv yanaşma Aİ-nin beynəlxalq hüquqa deyil, siyasi maraqlara əsaslandığını göstərir. Belə bir mövqe isə təşkilatın etibarlılığını zəiflədir və onu regionda obyektiv vasitəçi statusundan uzaqlaşdırır.

Aİ Rusiyaya qarşı geniş sanksiyalar paketi tətbiq etsə də, bu sanksiyaların effektivliyi ciddi suallar doğurur. Ermənistanın paralel ticarət və sanksiyalardan yayınma mexanizmlərində rolu açıq-aşkar görünsə də, Aİ bu faktlara siyasi reaksiya vermir. Bu isə sanksiya siyasətinin prinsipial deyil, selektiv şəkildə tətbiq olunduğunu sübut edir.

Yaxşı olardı ki, Aİ Azərbaycanın 5 gəmisinə yox, Yunanıstan və Kiprin gəmilərinə qarşı sanksiya tətbiq edərdi. Aİ-nin əsas üzvü Almaniya isə ümumiyyətlə sanksiyalara məhəl qoymur. Məsələn, Rusiyadan hələ də böyük həcmdə neft alır. Ermənistana qarşı da eyni mövqe sərgilənir. Ukraynada müharibə başlayandan bəri Ermənistan Rusiya ilə idxal və ixrac əməliyyatlarında sanksiya altında olan malların paralel idxal və ixracın əsas kanallarından birinə çevrilib. Lakin Aİ Ermənistana qarşı bəyanatlar, sanksiyalar qəbul etmir.

### Ermənistandakı repressiyalar və Aİ-nin susqunluğu...

Ermənistanda son dövrdə baş verən həbslər, siyasi təqiblər və dini institutlara qarşı təzyiqlər illərdir təbliğ olunan "Avropa dəyərləri" ilə ziddiyyət təşkil etsə də, Aİ bu məsələlərdə də səssiz qalır. Bunun qarşılığında isə Azərbaycana qarşı insan haqları adı altında aparılan kampaniyalar ikili yanaşmanın açıq göstəricisidir.Həbs edilənlərin siyahısında din xadimləri, iş adamları, müxalif siyasi birlik və partiyaları təmsil edən insanlar var. Aİ 2025-ci ildə Ermənistanda həbs və məhkum edilmiş şəxslərin yalnız bir qisminin adlarını xatırlatsa bəs edər - Ovik Abramyan, Vardan Qukasyan, David Ambartsumyan, Razmik Mkrtçyan, Vardan Arutyunyan və Ermənistanın "milli qəhrəmanı" Tiran Xaçatryan, kilsə nümayəndələri və keşiş Qalstanyan işi üzrə həbs edilənlər, iş adamı Samvel Karapetyan və onun "komandası" var.

Aİ bunlara reaksiya göstərmək əvəzinə Azərbaycanda insan haqları ilə bağlı dinləmələr təşkil edir, müharibə cinayətkarlarına sevgisini "ortaya qoyur". Təşkilat dəfələrlə Azərbaycana müharibə cinayətkarlarını azad etməyə çağırışlar edib. Halbuki onlardan biri Ruben Vardanyan Ukraynaya qarşı müharibəni maliyyələşdirən oliqarxlardan biri idi. Görünən budur ki, bölgədə ayırıcı xətlər çəkməyə çalışan Qərb həm də Azərbaycanın artan nüfuzundan narahatdır.

### Aİ üçün qaçılmaz hal...

Nəticə etibarı ilə, Aİ-nin Cənubi Qafqaz siyasəti sülhün möhkəmlənməsinə deyil, mövcud təsir imkanlarının qorunmasına xidmət edir. Azərbaycan-Ermənistan arasında birbaşa dialoq, üçüncü tərəfsiz normallaşma prosesi və bölgədə sabitliyin bərqərar olması Aİ-nin hazırkı siyasətinə uyğun gəlmir. Bu isə ikili standartların əsas səbəbidir. Reallıq ondan ibarətdir ki, Cənubi Qafqazda sülh artıq alternativsizdir və bu prosesi heç bir siyasi manipulyasiya dayandıra bilməz. Azərbaycan yeni regional nizamın aparıcı aktorudur və bu reallıqla hesablaşmaq Aİ üçün qaçılmazdır.

*Pərviz SADAYOĞLU*

# Təcili tibbi yardım xidmətində yenilik

## Rəqəmsal platforma yaradılır...

Cəmiyyətin sabitliyi, əmin-amanlığı, təhlükəsizliyi və hərtərəfli inkişafı üçün sosial, iqtisadi və siyasi faktorlar mühüm meyarlardan biridir. Bu amillərin bərpası və davamlılığı isə ictimai maraqların qorunmasından keçir. İctimai maraqlar yalnız fərdi şəxslərin deyil, bütün cəmiyyətin rifahını, təhlükəsizliyini və inkişafını təmin edən fundamental prinsiplərdir. Həmin maraqların qorunması isə cəmiyyətin müxtəlif sahələrində, o cümlədən qanunvericilikdə, iqtisadiyyatda, təhsil və səhiyyə sistemində öz əksini tapmalıdır.

Dünən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) 2025-ci ilin yekunlarına və gələcək planlara dair brifinqi keçirilib. Brifinqdə 2025-ci ilin 11 ayının nəticələri və qarşıdakı dövr üçün prioritet istiqamətlər ətrafında geniş müzakirə aparılıb.

### Siyasətimizin əsas prioritetlərindən biri...

TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov çıxışı zamanı ölkəmizdə səhiyyə sahəsinə göstərilən yüksək diqqətin dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu qeyd edib. Onun sözlərinə görə, bu siyasət nəticəsində tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilib, müasir avadanlıqlarla təchiz olunub və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti davamlı şəkildə artırılıb.



V.Qurbanov qeyd edib ki, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin fəaliyyətinin rəqəmsallaşdırılması təcili tibbi xidmətlərin keyfiyyətinin və operativliyinin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Layihə çərçivəsində çağırışların qəbulu, yönləndirilməsi və briqadaların idarə olunması üçün vahid elektron platforma yaradılması üzrə işlərə başlanılıb.

İcraçı direktor bildirib ki, həmçinin GPS əsaslı izləmə mexanizmləri, xəritə üzərindən real vaxt idarəetmə, briqadaların yüklülüyünün avtomatik hesablanması və operativ marşrutlaşdırma kimi imkanların tətbiqi ilə bağlı funksionallıqların yaradılması üzrə işlər hazırda davam etdirilir: "Məlumat axınının tam elektronlaşdırılması gələcəkdə həm çağırışların emal sürətini artırmağa, həm də xidmətin şəffaflığının yüksəldilməsinə gətirib çıxaracaq. Bu rəqəmsal sistem təcili tibbi yardıma olan çağırışlara daha çevik reaksiya verilməsinə imkan yaradacaq institusional idarəetməni müasir standartlara uyğunlaşdırmaqda mühüm rol oynayacaq".

### Məqsəd əlçatanlığı bütün regionlarda artırmaqdır

V.Qurbanov vurğulayıb ki, əsas məqsəd vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi və sağlamlığın etibarlı şəkildə qorunmasıdır: "2025-ci il ərzində TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində milyonlarla tibbi xidmət göstərilib, ambulator və stasionar xidmətlərin həcmi artıb, müraciədə müraciətlərin sayı yüksəlib. Bu nailiyyətlərdə səhiyyə idarəçilərinin və fədakar həkimlərin xüsusi rolu var. Qarşıda duran vəzifələrdən biri icbari tibbi sığortanın yaratdığı imkanlardan maksimum istifadə etmək, səhiyyə xidmətlərinin keyfiyyət və əlçatanlığını bütün regionlarda artımaqdır. Məlumdur ki, Sümük İliyi Transplantasiyası Mərkəzi qurulub. Bu Mərkəzin fəaliyyətinin təmin edilməsi və genişləndirilməsi növbəti il üçün əsas prioritetlərdən biridir".

İcraçı direktor bildirib ki, işğaldan azad olunmuş ərazilərdə əhalinin keyfiyyətli və əlçatan tibbi xidmətlə təmin olunması məqsədilə səhiyyə infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir: "Hazırda Qarabağ regionu üzrə Laçın Rayon Mərkəzi Xəstəxanası, Ağdərə Xəstəxanası, Şuşa, Ağdam və Zəngilan modul tipli xəstəxanaları, eləcə də Xankəndi poliklinikası daxil olmaqla ümumilikdə 6 tibb müəssisəsində vətəndaşlara ixtisaslı tibbi xidmət göstərilir.

Şuşa Modul Tipli Xəstəxanasında 35 min 449 müraciət üzrə 55 min 408 tibbi xidmət, Xankəndi xəstəxanasında 37 min 782 müraciət üzrə 44 min 982 tibbi xidmət, Zəngilan Modul Tipli Xəstəxanasında 4 min 458 müraciət üzrə 4 min 458 tibbi xidmət göstərilib. Ağdərə Xəstəxanasına 669 müraciət daxil olub və eyni sayda tibbi xidmət icra edilib. Laçın Rayon Mərkəzi Xəstəxanasında isə 29 min 895 müraciət üzrə 62 min 539 tibbi xidmət həyata keçirilib. Eyni zamanda, bölgədə səhiyyə xidmətlərinin daha da gücləndirilməsi məqsədilə yeni layihələrin icrası planlaşdırılır. Belə ki, 90 çarpayılıq Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin yaradılması nəzərdə tutulur. KT və MRT avadanlıqları ilə təchiz olunmuş, 91 çarpayılıq Zəngilan Rayon Mərkəzi Xəstəxanasının qurulması planlaşdırılır. Bundan əlavə, Ağdərə və Xocavənd rayonlarında uşaq və böyük poliklinikalarının, Xocalı rayonunda isə müasir uşaq və böyük poliklinikasının yaradılması nəzərdə tutulub".

### Şuşa Müalicə-Sağlamlıq Mərkəzi yaradılacaq

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır

# Tramp imzaladı

## Vaşinqtondan rekord hərbi büdcə - 901 milyard dollar



Dünyanın aparıcı güc mərkəzlərindən biri olan ABŞ-ın müdafiə büdcəsi rekord həddə müəyyənləşib. Belə ki, Prezident Donald Tramp 2026-cı il üçün rekord həcmdə - 901 milyard dollarlıq ABŞ Müdafiə Büdcəsini imzalayıb. Xatırladaq ki, 30 sentyabrda başa çatan 2025-ci maliyyə ilində ABŞ-ın müdafiə büdcəsi 884 milyard dollar təşkil etmişdi.

Sənədi imzalayan Tramp bildirib ki, ABŞ müdafiə büdcəsi "Hərb Nazirliyi"nə "güc vasitəsilə sülh" siyasətini həyata keçirməyə imkan verəcək. Qeyd edək ki, büdcə layihəsi dekabrın 17-də Senat tərəfindən qəbul edilib. Senatda keçirilən səsvermədə 77 konqresmen Milli Müdafiə Səlahiyyəti Qanununun (NDAA) lehinə, 20-si isə əleyhinə səs verib. Nümayəndələr Palatası isə layihəni ötən həftə təsdiqləmişdi. Prezidentin imzaladığı sərəncamla isə büdcə tam təsdiq olunub.

### Rəqabətin nəticəsi...

Siyasi analitiklər ABŞ-ın müdafiə büdcəsinin rekord həcmdə artırılmasının əsas səbəbini rəqibləri sayılan Çin və Rusiyaya qarşı rəqabət qabiliyyətini gücləndirmək olduğunu bildirirlər. Bundan başqa, yeni büdcədə hərbi qulluqçuların əmək haqqının 3,8 faiz artırılması, yeni hərbi texnikaların alınması da nəzərdə tutulur. Sənəd, həmçinin prezident Trampın bu ayın əvvəlində təqdim etdiyi ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasının həyata keçirilməsi üçün bir sıra məqamları ilə diqqət çəkir. Xatırladaq ki, ilkin mərhələdə Ağ Ev Konqresdən 2026-cı ilin hərbi xərcləri üçün 892,6 milyard dollar ayırmasını istəmişdi. Senat isə məbləği 925 milyard dollara qədər artırmağı təklif etmişdi.

### Ukraynaya 400, Baltikyanı dövlətlərə 175 milyon dollar...

Maraqlıdır ki, yeni büdcədə Ukraynaya hərbi dəstək xüsusi vurğu edilir. Sənəd Kiyevə Ukrayna Təhlükəsizlik Yardımı Təşəbbüsü (USAI) çərçivəsində 800 milyon dolların ( iki il ərzində hər biri 400 milyon dollar olmaqla) ayrılmasını nəzərdə tutur. Bu vəsaitlər Amerika şirkətləri vasitəsilə Ukrayna Silahlı Qüvvələri üçün silah almaq üçün istifadə olunacaq.

Eləcə də Baltikyanı ölkələrin - Estoniya, Latviya və Litvanın müdafiəsi üçün 175 milyon dollar ayrılması nəzərdə tutulub. Bundan əlavə, qanun ABŞ Müdafiə Nazirliyinin Avropadakı Amerika qoşunlarının sayını 76.000 mindən aşağı salmaq imkanını məhdudlaşdırır. Avropadakı ABŞ komandanının NATO-nun Ali Müttəfiq Komandanı vəzifəsindən imtina etməsi də qadağan edilir.

Qeyd edək ki, yeni büdcə qanununda Trampın ABŞ Müdafiə Nazirliyinin adının "Müharibə Nazirliyi" olaraq dəyişdirilməsi təklifindən bəhs edilmir. ABŞ administrasiyası artıq bu addan istifadə etsə də, müdafiə naziri Pit Heqset özünü "Müharibə üzrə dövlət katibi" adlandırsa da, dəyişiklik rəsmi olaraq Konqres tərəfindən təsdiqlənməlidir.



### "Qızıl Günbəz" reallaşır?

Yeni büdcədə həm də "Qızıl Günbəz" raketdən müdafiə sisteminin maliyyələşdirilməsi də əks olunur. Qeyd edək ki, "Qızıl Günbəz" Amerika materikini bütün növ raketlərdən (ballistik, kruiz və hipersəs) tam qoruyacaq çoxqatlı raketdən müdafiə sistemidir. Proqram Şimali Amerika qitəsini nüvə raketləri də daxil olmaqla ballistik, hipersəs və kruiz raketlərindən, eləcə də dronlardan qorumağı hədəfləyir. Kosmik sensorlara və tutuculara əsaslanır. Qeyd edək ki, Donald Tramp hələ birinci prezidentliyi dövründə oxşar raketdən müdafiə qalxanının hazırlanması təklifini irəli sürsə də, layihə reallaşmamışdı. Prezidentliyinin ikinci dönəminin icrasına başlar-başlamaz, bu ilin yanvarın 27-də Tramp qlobal raketdən müdafiə sisteminin yaradılması ilə bağlı sərəncam imzaladı. Layihə bu ilin mayında Tramp və müdafiə naziri Pit Heqset tərəfindən elan edilib. Amerika lideri 2029-cu ildə prezidentliyinin sonuna qədər yeni raketdən müdafiə sistemini yerləşdirmək planlarını açıqlayıb və bunun üç il ərzində tamamlanmasını istəyir. Layihənin meneceri ABŞ Kosmik Qüvvələrinin generalı Maykl Qutleyn təyin olunub. Bəzi ekspertlər bu sistemi 1983-cü ildə Prezident Ronald Reyqan tərəfindən təklif edilən başqa bir layihə olan Strateji Müdafiə Təşəbbüsü (SDI) ilə müqayisə edirlər. Bu plan qeyri-rəsmi olaraq "Ulduz Müharibələri" adlandırılmışdı. Təşəbbüsün mahiyyəti düşmən raketlərini uçuşun istənilən mərhələsində məhv etmək üçün lazer silahlarından istifadə edən laylı müdafiə sisteminin hazırlanması idi. Layihə üzərində işlər 1990-cı illərin əvvəllərində dayandırıldı, çünki o zaman çox bahalı və texniki cəhətdən mürəkkəb hesab olunurdu.

Məlumata görə, proqram Rusiya, Çin, İran və Şimali Koreyada raket texnologiyalarının inkişafına cavabdır. Yeni raketdən müdafiə sistemi ilə ABŞ enerji sistemləri, nüvə obyektləri və hərbi bazalar da daxil olmaqla, vacib infrastrukturunun təhlükəsizliyini təmin etmək niyyətindədir. Layihə konsepsiyası raketlərin buraxılışından iki dəqiqə ərzində ələ keçirilməsini nəzərdə tutur - yeni sistem 400-dən 1000-ə qədər raket aşkarlama və izləmə peykindən ibarət bürclərin və onları məhv etmək üçün kinetik tutucular (raketlər) və ya lazerlərlə təchiz olunmuş əlavə 200 zərbə peykinin yaradılmasını nəzərdə tutur. Tramp layihənin 175 milyard dollara başa gələcəyini bildirmişdi. Lakin Konqresin Büdcə İdarəsinin hesablamalarına görə, "Qızıl Günbəz"in tətbiqinin növbəti iki onillikdə ümumi dəyəri 831 milyard dollara çata bilər. "The Guardian" mənbələrinə görə, sistemin nümayiş versiyası 2028-ci ilin sonuna qədər hazır olacaq.

**S.İSMAYILZADƏ**

# NATO - Rusiya "müharibəsi" yenidən gündəmdə

## Kreml şərt qoyur: sərt ritorikadan əl çəkilsə...

Rusiya - Ukrayna müharibəsinin dayandırılması, sülh prosesinin inkişaf etdirilməsi istiqamətində gedən danışıqlarda əldə olunan irəliləyiş bir sıra suallar formalaşdırıb. Belə ki, ABŞ-ın formalaşdırdığı sülh planında Ukraynanın NATO-ya daxil olması məsələsinin gündəmdən düşməsi, eləcə də rəsmi Kiyevin silahlı qüvvələrinin sayının azaldılması ilə bağlı məlum müddəalar qərb koalisiyası tərəfindən birmənalı qarşılanmır - Vaşinqton bu məsələdə razılıq ifadə edirsə də, Avropa bu şərtləri uyğun saymır. Nəticədə isə Avropanın anti-Rusiya ritorikası daha da sərt xarakter alır

### Moskva dialoqa hazır olduğunu deyir...

Rusiya tərəfi isə münasibətlərin normallaşması üçün bu sərt ritorikadan əl çəkilməsi şərtini irəli sürür. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin Avropa problemləri departamentinin direktoru Vladislav Maslennikov "İzvestiya" qəzetinə müsahibəsində bildirib ki, NATO anti-Rusiya mövqeyindən əl çəkməyə və qarşılıqlı hörmət əsasında dialoqa razılıq versə, Rusiya danışıqlara hazır olacaq. Onun sözlərinə görə, Rusiya qarşılıqlı maraqlara hörmət, bərabər və bölünməz təhlükəsizlik prinsipi əsasında dialoq aparmağa razıdır. Maslennikov xatırladıb ki, 2014-cü ildə NATO "istənilən hava şəraitində əməkdaşlıq" prinsipindən imtina edərək, sadəcə olaraq, Moskva ilə bütün kommunikasiya kanallarını dondurub. Xarici İşlər Nazirliyinin departament direktoru əlavə edib ki, alyans Rusiyaya qarşı mübarizəni prioritet hesab edir, Moskvanı öz üzvləri üçün ən mühüm və birbaşa təhlükəsizliyə təhdid elan edib. "NATO-nun qarşıdurma kursu ən azı orta müddətli perspektivdə möhkəmdir və onun geri qaytarıla biləcəyinə dair heç bir sübut yoxdur. Əksinə, alyans rəhbərliyi bəyan edir ki, Rusiya Ukrayna böhranı həll olunduqdan sonra belə, təhlükəsizlik üçün əsas təhdid olaraq qalacaq", - diplomat bildirib.

### NATO-nun büdcəsi sürətlə artır

Qeyd edək ki, bir neçə gün öncə Rusiya Prezidenti Vladimir Putin də Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiya iclasında bildirmişdi ki, Rusiya danışıqlar aparmağa və problemləri sülh yolu ilə həll etməyə hazırdır. "Biz, əvvəlki kimi, son illərdə yaranan bütün problemləri sülh yolu ilə həll etməyə və danışıqlar aparmağa hazırıq", - deyə Putin qeyt etmişdi. Rusiya Prezidenti demişdi ki, Avropadakı siyasətçilər isterika dərəcəsini artırır və Rusiya ilə müharibənin qaçılmazlığı ilə bağlı insanların ağlına qorxu salırlar. "Həqiqət budur ki, Rusiya həmişə, ən çətin şəraitdə, ən kiçik bir şans olduğu müddətcə, ziddiyyətlərə və münaqişələrə diplomatik həllər tapmaq üçün sona qədər çalışıb. Və bu imkanlardan istifadə edilməməsinin məsuliyyəti tamamilə bizimlə güc yolu ilə danışa biləcəklərinə inananların üzərinə düşür", - deyə Rusiya lideri vurğulamışdı.

Müdafiə naziri Andrey Belousov da NATO-nun Rusiya ilə hərbi münaqişəyə hazırlaşdığını göstərən əlamətlərin olduğunu deyib. Belousov bildirib ki, NATO öz qüvvələrini artırır və Rusiya ilə hərbi toqquşmaya hazırlaşır. Nazirin sözlərinə görə, NATO-nun hazırkı 1,6 trilyon dollarlıq büdcəsi, milli ÜDM-in 5 faizə qədər tədricən artırılması nəzərə alınmaqla, yaxın illərdə 50 faizdən çox arta bilər.



### Müharibə çağırışı...

Qeyd edək ki, bu il ərzində mümkün NATO-Rusiya qarşıdurması ilə bağlı mütəmadi müzakirələr aparılıb. Dekabrın əvvəlində NATO-nun baş katibi Mark Rutte alyansı Rusiyanın növbəti hədəfi adlandırmışdı. Rutte alyansı Rusiya ilə müharibəyə və münaqişəyə hazırlaşmağa çağırmışdı. Macarıstanın Baş naziri Viktor Orban da dekabr ayında Aİ liderlərinin Rusiya ilə müharibəyə hazırlaşdığını və 2030-cu ilə qədər tam hazırlığa çatmaq niyyətində olduğunu bildirmişdi. Bundan əvvəl, iyun ayında NATO-nun Haaqa şəhərində keçirilən sammitində də bu məsələ müzakirə predmetinə çevrilmişdi. Bir neçə gün öncə "Wall Street Journal" qəzeti bir qrup yüksək rütbəli alman zabitinin Rusiya ilə müharibə üçün gizli plan hazırladığını yazıb. Qeyd olunur ki, Almaniya 2029-cu ilə qədər illik müdafiə büdcəsini ikiqat artıraraq 162 milyard avroya (189 milyard dollar) çatdırmaq niyyətindədir. Qəzetin yazdığına görə, Almaniyanın müdafiə naziri Boris Pistorius Rusiyanın 2028-2029-cu illərdə hansısa NATO ölkəsinə hücum edə biləcəyinə inandığını önə sürüb.

### Alyans hazırlaşmalıdır...

Müharibə ritorikasının yenidən gündəmə gəldiyi bir dövrdə NATO-nun dəniz qüvvələrinin Ali Komandanı və Kral Dəniz Qüvvələrinin vitse-admiralı Mayk Atlee "Bloomberg"ə açıqlamasında bildirib ki, Qərb silahlı qüvvələri həm kibertəhdidləri, həm də hərbi əməliyyatları əhatə edən daha mürəkkəb döyüş mühitinə hazırlaşmalıdır. O qeyd edib ki, NATO-nun Rusiya ilə müqayisədə üstün imkanları var, lakin bu, alyansın uzunmüddətli döyüş dövrünə tab gətirə biləcəyi anlamına gəlmir. "İstədiyimiz qədər davamlılığımız varmı? Düşünürəm ki, son 10 ayın təcrübəsi göstərir ki, xeyr, bizdə yoxdur." "Lakin ölkələr bunu çox yaxşı başa düşürlər və davamlılığımızı gücləndirməyə investisiya qoymağa hazırdırlar", - deyə o qeyd edib.

**SADİQ**




# Aİ-Mercosur azad ticarət sazişi imzalanmadı

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Avropa İttifaqına üzv 27 ölkənin liderlərinə Mercosur ölkələri ilə azad ticarət sazişinin imzalanmasının yanvar ayına qədər təxirə salındığını bildirib.

AZƏRTAC xəbər verir ki, bu barədə diplomatik mənbələrə istinadən məlumat yayılıb. Qərar Brüsseldə keçirilən Avropa sammiti fonunda qəbul olunub. Həmin gün Brüsseldə bir neçə Avropa ölkəsindən olan fermerlər sazişə etiraz olaraq bütün gün Avropa Komissiyasının binaları qarşısında aksiya keçiriblər. Fermerlər hesab edirlər ki, müqavilənin şərtləri onları Cənubi Amerika ölkələrindən gələn məhsullarla rəqabət qarşısında kifayət qədər qorumur.

Razılaşmanın təxirə salınmasına Braziliya Prezidenti Lula da Silva da dolayı yolla dəstək verib. O, İtaliyanın Baş naziri Corcia Meloni ilə telefon danışığından sonra bir qədər səbirli olmaq lazım gəldiyini bildirib. Meloni isə İtaliyanın yekunda sazişi dəstəkləyəcəyinə dair vəd verib.

Bu gecikmə sazişin yaxın günlərdə imzalanmasını istəyən Avropa Komissiyası, Almaniya və İspaniya üçün uğursuzluq kimi qiymətləndirilir. İstanbul der Lyayen razılaşmanı Braziliyanın Fos-du-İquasu şəhərində keçiriləcək Mercosur sammiti zamanı imzalamağı planlaşdırsa da, Fransa və İtaliyanın etirazı səbəbilə Brüsseldə lazımi çoxluğu əldə edə bilməyib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# ŞƏNBƏ ÜÇÜN NƏZM



Mən elə bir adamam -
cavab tapsam suala,
Hamıdan tez susaram,
hamıdan gec dillənərəm...

Mən elə bir adamam -
keçmədiyim dərsləri
Hamıdan tez oxuyaram,
hamıdan gec öyrənərəm...

**Gəlmişəm**

Nəfsimi boğmamış
boğulmuşam mən,
Dərd məni yormamış
yorulmuşam mən.
Fələk doğulmamış
doğulmuşam mən -
Ondan əvvəl saya-saya gəlmişəm...

Yer qatında
işıq saçan adamam,
Mən Günəşə
süfrə açan adamam -
Qışın soyuğundan
qaçan adamam,
Allah-Allah deyib yaya gəlmişəm...

Dünya daralmayıb,
yenə genişdi,
Həmin görkəm,
həmin o görünüşdü -
Çox tanış gəlir,
hə, yadıma düşdü,
Bir dəfə də doqquz aya gəlmişəm...

**Olmasın müharibələr**

Şəhidlər xiyabanında
havaya yaylım atəşi
açılmasın...

Analar diz döyə-döyə
cansız oğullar gətirən
cənazənin qabağına
dizi üstə yıxılmasın...

Atalar ah çəkə-çəkə
Vətən sağ olsun deyərək
üçrəngli, aylı-ulduzlu
bayraqlara sarılmasın...

Kitablara, heykəllərə,
bulaqlara, şəkillərə
“Filankəs filan tarixdə
filan şəhərin uğrunda
Şəhid olub” yazılmasın...

Olmasın müharibələr:
Göyərçinin qanadları
qırılmasın...

**Anam bilmir**

Uşaq vaxtı anam mənə
yemək yedizdirəndə
üstümə dağıdardım,
anam əsəbləşərdi...
İndi öz əllərimlə qəm yeyirəm,
yerə-göyə dağıdıram...

Anam bilmir!
Səkkiz martda
əlimdə gül
“Ana” şeiri oxuyardım...
İndi ona oxuduğum şeirləri
mən yazıram...

Anam bilmir!
Evə gec çıxardım, darıxdığından
qucaqlayıb qoxlayardı:
İndi üstümdən siqaret iyi gəlir...

Anam bilmir!
Yalan nəsə deyəndə mən
Allaha and içməyimi istəyərdi...
İndi anamın canına and içirəm...

Anam bilmir!







**Yüz yaşını qeyd edir**

Vaxt var idi birdən
yüzəcən saya bilmirdi heç;
Rəqəmləri tanımırdı,
Birin arxasına sıfırlar
qoya bilmirdi heç -
İndi gör nə qədər sıfır dalda qalıb...

Üzündə yüz illik qırış,
Gözlərində yüz ilin göz yaşı var -
Ad günündə eşitdiyi arzuları
Ondan qabaq Göy eşidib -
Adının yüz yaşı var,
Təvəllüdün unudan qadının
yüz yaşı var...

Evin bir tərəfində doğmaların şəkilləri,
Bir tərəfində tənhalıq asılıb -
Şəklin tənhalığı...
Bu qadın dərd qadındı,
Bəlkə də, onun haqqında yazılıb:
“Yüz ilin tənhalığı...”

***

Allahım, həyatıma
təkrar baxmaq istəyirəm -
Barmağınla dala çək,
Kadrlar başa dönsün...

Ayrılıq da cüt olsun -
Sevənlər qoşa getsin,
Gedənlər qoşa dönsün...

Mənə yüz yaş arzulayan,
Görüm dilindən çıxıb
ətəyindən yapışsın -
Tanrı qəbul etməsin,
Duam qarğışa dönsün...

Deyirlər, cahan düzəlir:
İnsan ömrü olacaq
Daş dövründəki kimi -
İnanan daşa dönsün...

**Tələsən geclik**

Mən elə bir adamam -
əgər dünya dağılsa,
Hamıdan tez bilərəm,
hamıdan gec tərpənərəm...

Mən elə bir adamam -
ölüm mələyi gəlsə,
Hamıdan tez qarşılayaram,
hamıdan gec gizlənərəm...

***Elvin İntiqamoğlu***

# Həmrəy olmaq!

## İnsanları və dünyanı sınağa çəkən hadisələr...

Həyat çox vaxt qarşımıza gözlənilməz, çətin situasiyalar çıxarır. Bu vəziyyətlər hər birimizin həyatında izlər qoyur və bizi daha da formalaşdırır. Çətin anlar fərqli reaksiya doğura bilər, lakin ən əhəmiyyətli reaksiyalardan biri insanın ətrafındakı insanlarla birləşməsi, bir-birinə dəstək olmasıdır.

İstər bir ölkənin daxilində, istərsə də dünya üzrə hansısa fəlakətlər, çətinliklər baş verdikdə insanlar həmrəylik nümayiş etdirirlər. Cəmiyyətin bu cür davranışı hadisəyə kütləvi reaksiyasıdır və bunu instinktiv də saymaq olar. Bu, insanların birgəyaşayış zamanı təhlükəyə qarşı verdikləri cavabın müasir dövrdəki təzahürü də sayıla bilər. Həmrəylik maraqların vəhdətindən yaranır, eyni zamanda, özü maraqların birliyini formalaşdırır. Buraya qarşılıqlı anlaşma, normalar və vəzifə ümumiliyi daxildir. Həmrəylik cəmiyyətdə insanları vahid orqanizmdə birləşdirmək üsulu kimi də təsəvvür edilə bilər.

## Fundamental və universal bəşəri dəyər

Məsələnin mühüm tərəflərindən biri həmrəyliyin fərqli cəmiyyətdə fərqli məzmun kəsb etməsindən ibarətdir. İbtidai cəmiyyətlərdə həmrəylik başlıca olaraq qohumluq əlaqələri üzərində qurulub. Müasir cəmiyyətlər üçün isə müxtəlif meyarlar mövcuddur. Burada cəmiyyətin tarixi təkamülü, milli mentalitetin özəllikləri, siyasi sistemin xüsusiyyətləri, ölkənin yerləşdiyi regionun geosiyasi fərqlilikləri, tarixi-coğrafi faktorlar və s. rol oynayır.

Bu gün Beynəlxalq İnsan Həmrəyliyi Günü kimi qeyd olunur. BMT Baş Məclisi 2005-ci ildə Beynəlxalq İnsan Həmrəyliyi Gününün elan olunması haqqında qətnamə qəbul edib. Qətnamə Minilliyin Bəyannaməsi əsasında hazırlanıb. Bəyannamədə deyilir ki, həmrəylik XXI əsrdə beynəlxalq münasibətlərin əsasını təşkil etməli olan fundamental və universal bəşəri dəyərlərdən biridir.



## Həmrəylikdə ideoloji faktorlar

Sosioloqların qənaətinə görə, sosial həmrəylik növü cəmiyyətin tipləri ilə tənzimlənir. Hər cəmiyyətə uyğun həmrəylik modeli ola bilər. Deməli, həmrəylik tarixi xarakterlidir - hər tarixi məqam üçün müvafiq birlik forması tapmaq lazımdır. Buna nail olmadıqda yaxşı birlik modeli belə cəmiyyəti çətin vəziyyətlərə sala bilər. Mütəxəssislərin fikrinə əsasən, orqanik həmrəylik müasir cəmiyyətlərdə olur və insanların qarşılıqlı asılılığından qaynaqlanır. Burada fərdlərin bir-birinə etimadı prinsipial rol oynayır.

Deməli, müasir cəmiyyətlərdə həmrəyliyi təmin etmək üçün xüsusi birləşdirici mexanizmlər olmalıdır. O, əsas olaraq uyğun ideoloji konseptlə bağlı olur. İdeologiya başqa faktorlarla yanaşı, etnosun dünyanın bütün guşələrində olan nümayəndələri arasında birlik yaratmağa imkan verir. Bu səbəbdən müasir cəmiyyətlər üçün düzgün ideoloji konsepsiyanın müəyyənləşdirilməsi həm müstəqil dövlətçilik, həm də vətəndaş cəmiyyəti formalaşdırmaq aspektlərində strateji əhəmiyyət kəsb edir.

## Bütün dünyanın həmrəylik nümunəsi...

Məlumdur ki, bütün dünya koronavirus bəlası ilə üzləşdi. Ancaq dünya dövlətləri siyasi ambisiyalarını gizlətməsələr belə, ona qarşı mübarizədə birlik nümayiş etdirdi. Koronavirusa qarşı vaksinlərin yoxsul ölkələrə pulsuz verilməsi, virusun yayılmasının qarşısını almaq məqsədilə karantin rejiminin ölkədaxili və sərhədlərdə tətbiqi həmrəyliyin nümunələrindən sayıla bilər.

Bundan başqa, ötən ilin fevral ayında Türkiyənin 10 əyalətində baş verən 7,7 maqnitulalıq zəlzələ cəmiyyətləri bir-birinə yaxınlaşdırdı. ABŞ, Böyük Britaniya, Azərbaycan, Rusiya, Hindistan, Çin, Yaponiya, Pakistan, İran, Avropa İttifaqı, NATO, Türk Dövlətləri Təşkilatı, bir sözlə, yaxın və uzaq ölkələr yardım etdi. Bir sıra dövlətlərdə könüllü olaraq zəlzələnin nəticələrinin aradan qaldırılması üçün yardımlar toplandı.

Etiraf edək ki, xəbis xislətlilər insanların həmrəyliyinə həmişə mane olub. Lakin sevindirici hal odur ki, onların sayı çox azdır. Son illər baş verən pandemiya, keçən il Türkiyə və Suriyadakı zəlzələ sübut etdi ki, mənləşmə insanları ümumi dəyərlərdən ayıra bilməyib. Beləliklə, son illərdə baş verən hadisələr insan cəmiyyətinin hələ də ali məqsədlərə əməl etdiyini bir daha sübut etdi. Bu isə dünyanın gözəlliyini göstərir...

***Yeganə BAYRAMOVA***

# “Honkonq” virusu sürətlə yayılır...

## Azərbaycanda vəziyyət necədir?

Hazırda bir çox ölkədə “Honkonq qripi” (H3N2 virusu) yayılmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertləri də H3N2 virusunun sürətlə yayıldığını təsbit ediblər. ÜST-ün Epidemioloji və Pandemiya Təhlükələrinin İdarə Edilməsi Departamentinin Qlobal Respirator Təhlükələri Şöbəsinin müdiri Ventsin Çjanın sözlərinə görə, virus artıq dünyanın 30 ölkəsində aşkarlanıb.

Onun sözlərinə görə, Şimal yarımkürəsində qış mövsümünün başlaması ilə qrip və digər tənəffüs yolu virusları ilə yoluxma hallarında artım müşahidə olunur. Bununla belə, qripə yoluxmanın qlobal səviyyəsi bu mövsümdə hələ gözlənilən diapazondadır.

**Səhiyyə sisteminə böyük təzyiq ola bilər**

Bundan başqa, ÜST-ün Avropa regional bürosunun direktoru Hans Kluge bildirib ki, Avropada yayılmaqda olan yeni qrip ştamı səhiyyə xidmətlərinə güclü təzyiq göstərir. Onun sözlərinə görə, qrip hər il qış mövsümündə müşahidə olunur, lakin bu il vəziyyət fərqlidir: “Xəstəliyin kiçik genetik mutasiyası belə səhiyyə sisteminə böyük təzyiq göstərə bilər”.

Proqnozlara əsasən, Avropada qrip mövsümü dekabrın sonu və ya yanvarın əvvəlində zirvəyə çatacaq. Kluge vəziyyətin ciddi olduğunu, lakin COVID-19 pandemiyası dövründəki kimi qlobal fövqəladə vəziyyət səviyyəsinə çatmadığını qeyd edib.

ÜST-ün məlumatına görə, Avropada təsdiqlənmiş qrip hallarının təxminən 90 faizi “Honkonq qripi” kimi tanınan ştama aiddir. Fransada tibbi xidmətlər bu ştamın müxtəlif yaş qrupları arasında güclü aktivliyini müşahidə edir. İspaniyada qripə yoluxma halları artıq ötən ilin göstəricilərini keçib. Almaniyada isə qrip mövsümü adi vaxtdan iki-üç həftə əvvəl başlayıb.




Bir sıra ölkələrdə yayılan H3N2 virusunun ölkəmizdə də yayılması ilə bağlı təşviş yaransa da, rəsmi qurumlar hələlik bu istiqamətdə hər hansı təsdiqlənmiş məlumat açıqlamayıblar. Bununla belə, əhali arasında xəstəliyin qeyri-adi gedişi ciddi narahatlıq doğurur. Paytaxt sakinlərinin sözlərinə görə, 39-40 dərəcəyədək yüksələn hərarət və güclü titrətmə müşahidə olunsa da, əksər hallarda öskürək, boğaz ağrısı kimi klassik respirator simptomlar olmur. Bu isə xəstəliyin yeni virus olub-olmaması ilə bağlı suallar yaradır.

Əhali arasında hərarətin yüksəlməsi, ümumi halsızlıq, öskürək, boğaz ağrısı, burun axması və ya tutulması kimi əlamətlərlə müraciət edən şəxslərdən götürülmüş yaxmalarda fəsli qrip virusu və ara-sıra digər respirator viruslar aşkarlanır.

**Koronavirusa da bənzəyir...**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən virusoloq Arzu Məlikova bildirib ki, “Honkonq qripi” mövsümi viruslardan sayılır: “Bu qrip sıx nəqliyyat vasitələrində, yəni metroda, avtobusda, həmçinin məktəblərdə daha çox yayılı. “Honkonq qripi” koronavirusa da bənzəyir. Ancaq analizdən sonra tam vəziyyəti müəyyənləşdirmək olar. Simptomlar baş ağrısı, ürəkbulanması, quru və bəlğəmli öskürək, hərarətin qalxmasıdır”.

**Ölümcül ola bilər**

Virusoloq qeyd edib ki, H3N2 virusu əhəmiyyətli dərəcədə mutasiyaya uğradığı üçün əhalinin əksəriyyətində davamlı immunitet yoxdur: “Yaşlılar və zəifləmiş immunitet sistemi olanlar üçün bu virus istənilən qrip kimi, ölümcül ola bilər”.

**Özümüzü necə qorumalıyıq?**

A.Məlikovanın sözlərinə görə, infeksiyanın qarşısını almağın ən yaxşı yollarından biri qripə qarşı peyvənd olunmaqdır: “Öskürək və asqırma zamanı ağzı dəsmal ilə örtmək və əlləri tez-tez ılıq su və sabunla yumaq çox vacibdir. Qrip xəstələri evdə qalmalıdırlar, amma çölə çıxmaq məcburiyyətində qalsalar, vaxtlarının çox hissəsini açıq havada keçirməlidirlər”.

***Yeganə***

# Amazon Web Services Azərbaycanda

***Azercell qlobal texnologiya lideri ilə strateji tərəfdaşlığını genişləndirir***

Azercell dünyanın ən böyük bulud infrastrukturu və rəqəmsal texnologiyalar təminatçılarından biri olan Amazon Web Services (AWS) ilə strateji tərəfdaşlığını genişləndirir. Əməkdaşlığın yeni mərhələsində lider mobil operator ölkədə qabaqcıl infrastruktur həllərinin tətbiqini və texnoloji imkanların artırılmasını hədəfləyir.

Tərəfdaşlıq çərçivəsində korporativ müştərilər üçün xüsusi əhəmiyyət daşıyan hibrid bulud infrastrukturu, GPU texnologiyaları, Əşyaların İnterneti (IoT) üzrə analitika, süni intellekt, real vaxt rejimində interaktiv tətbiqlər (real-time gaming) və kənar hesablama (edge computing) kimi istiqamətlərin inkişafına xüsusi yer verilir. Bu həllərin lokal infrastrukturla inteqrasiyası xidmətlərin çevikliyini yüksəldərək, onların artan tələblərə asanlıqla uyğunlaşmasını təmin edir. Bununla bərabər sözügedən inteqrasiya məlumat suverenliyi (data sovereignty) prinsiplərinin tətbiqini daha etibarlı səviyyəyə yüksəldir.

AWS ilə əməkdaşlıq biznesin rəqəmsal transformasiyasını sürətləndirməklə yanaşı innovativ xidmətlərin tətbiqini genişləndirir və şirkətlərin texnoloji hazırlığını gücləndirir. Eyni zamanda, bu tərəfdaşlıq ölkədə startap ekosisteminin inkişafı və yüksək texnologiyalı layihələrin reallaşdırılması üçün əlverişli şərait yaradır.

Amazon Web Services ilə qurulan bu strateji əməkdaşlıq milli rəqəmsal infrastrukturun gücləndirilməsinə xidmət edir. Azercell bu kimi beynəlxalq təcrübə və innovativ həllər əsasında biznes sektoru üçün yeni imkanlar yaratmaqla yanaşı, ölkənin rəqəmsal iqtisadiyyatının inkişafına da töhfə verməyi hədəfləyir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2557**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova